# Rusiyanın adı yoxdur

## Çin Almaniyaya yeni marşrut xətti açıb



**Çin hökuməti Sian şəhərindən Avropaya yükdaşımalar üçün Rusiyadankənar ərazilərlə yeni dəmiryol marşrutunu işə salıb.**

Yeni marşruta görə Çindən yüklər qatar, Xəzər və Qara dənizi vasitəsi ilə Almaniyaya çatdırılacaq.

Yüklər Qazaxıstan, Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan, Slovakiya və Çexiyadan keçəcək. Sian şəhər gömrük idarəsinin saytında yerləşdirilən məlumata görə, 316 ton ümumi çəkidə olan 42 konteynerdən ibarət ilk qatar aprelin 13-dən Siandan yola salınıb.

(səh.3)



## Rusiya “Sarmat” ballistik raketini sınaqdan çıxarıb

**Rusiyanın Müdafiə Nazirliyi ”Sarmat” qitələrarası ballistik raketinin uçuş sınağına dair video yayıb.**

Videoda raketin şaxtadan qalxaraq hədəfə yönəldiyi görünür. (apa)

Nazirlik bildirib ki, ”Sarmat” qitələrarası ballistik raketi Arxangelsk vilayətindəki kosmodromdan buraxılıb. Təlim döyüş başlıqları Kamçatkadakı poliqona çatıb.


№ 69 (5591), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az   21 aprel 2022-ci il (cümə axşamı)




# FHN köməksiz vəziyyətdə qalan qadını xilas etdi

## Nailə Ağayeva təxliyə edilərək təcili tibbi yardım briqadasına təhvil verilib

**Fövqəladə Hallar Nazirliyinin ”112” qaynar telefon xəttinə Gəncə şəhəri ərazisində Gəncə çayının sahilində vətəndaşın köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub.**

Fövqəladə Hallar Nazirliyindən ”Şərq”ə bildirilib ki, məlumatla əlaqədar FHN-in Gəncə Regional Mərkəzinin xilasediciləri dərhal hadisə yerinə cəlb edilib.

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən edilib ki, Gəncə şəhər sakini 1965-ci il təvəllüdlü Ağayeva Nailə Sabir qızı ehtiyatsızlıqdan dərinliyi təqribən 3 metr olan çay sahilinə yıxılıb və xəsarətlər alaraq köməksiz vəziyyətdə qalıb.

Xilasedicilər xüsusi xilasetmə vasitələri ilə N.Ağayevanı təxliyə edərək təcili tibbi yardım briqadasına təhvil veriblər.



# Putinlə Zelenski arasında görüş hər an baş tuta bilər

## Çavuşoğlu: “Ukraynada müharibənin davam etməsini istəyən ölkələr var”

**NATO daxilində Ukrayna müharibəsinin davam etməsini istəyən ölkələr var.**

Bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu yerli KİV-ə müsahibəsində bildirib.

XİN rəhbərinin sözlərinə görə, bu ölkələr müharibənin davam etməsi fonunda Rusiyanı zəiflətmək məqsədi daşıyır, Ukraynadakı vəziyyət isə onları çox da maraqlandırmır.

”Antalyadakı danışıqlardan bir nəticə çıxacağını gözləmirdik. Önəmli olan tərəfləri bir araya gətirmək idi. Hər iki tərəf hələ də danışıqları davam etdirirlər”, - M. Çavuşoğlu qeyd edib.

Nazir həmçinin vurğulayıb ki, Rusiya və Ukrayna liderləri arasında görüş hər an baş tuta bilər.

”İki ölkə liderlərinin görüşü hazırda müzakirə olunur. Putinlə Zelenski arasında görüş baş tutsa, bu, İstanbulda və ya Antalyada ola bilər”, - XİN başçısı əlavə edib.

# Şarl Mişel Kiyevə gəlib



**Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşüb.**

Bu barədə Ukrayna prezidenti ”Twitter”də bildirib.

Görüş Aİ liderinin Kiyevə səfəri çərçivəsində baş tutub.

”Dəyərli dostum Şarl Mişel bu gün Kiyevdədir. Rusiyaya qarşı sanksiyalar, ölkəmizə müdafiə və maliyyə dəstəyi, Aİ meyarlarına uyğunluqla bağlı sorğunun cavabları müzakirə edilib. Mənalı görüşə və Ukrayna xalq ilə həmrəyliyə görə təşəkkür edirəm”, - Zelenski qeyd edib.

# Bəyannamə imzalandı

## Azərbaycanla Qırğızıstan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi



**“Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətlərimizi yeni səviyyəyə çatdıracaq”. Bunu Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşdə deyib. Dövlət başçısı qeyd edib ki, iki ölkənin münasibətlərinin möhkəm təməli var:**

“Bu, xalqlarımızın qardaşlıq əlaqələridir. Bu gün biz dövlətlərarası münasibətləri belə bir möhkəm təməl üzərində, bu prinsiplər əsasında qururuq”. Prezident gələn il diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd ediləcəyini vurğulayıb: “Bu, böyük tarixdir, çox iş görülüb, lakin hələ çox iş görülməlidir. Əminəm ki, həm beynəlxalq qurumlarda əməkdaşlıq çərçivəsində, həm də ikitərəfli formatda yeni nailiyyətlər, yeni nəticələr olacaq”.

(səh.2)

# Baş nazir Amerikanın maraqlarını Moskvaya satdı

## Paşinyan çalışacaq ki, Rusiyanın əliylə alternativlərini zərərsizləşdirsin



**Amerika Birləşmiş Ştatlarının Qafqazda danışıqlar üzrə baş müşaviri Endryu Şofer regiona səfəri çərçivəsində Ermənistanda olub.**

Ermənistan mətbuatı onu ”ATƏT-in Minsk qrupunun amerikalı həmsədri” kimi təqdim etməyə çalışsa da, ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosu tviterdə onu Qafqazda danışıqlar üzrə baş müşavir adlandırıb.

Bununla aydın olub ki, Vaşinqton Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə vasitəçilik missiyasını həyata keçirən həmsədrlik formatından imtina edib.

(səh.4)



# Azərbaycanda iki dəfə zəlzələ oldu

## Təkanlar episentrdə 3 bala qədər hiss olunub

**Dünən yerli vaxtla saat 17:37-də Zaqatala stansiyasından 42 km cənub-qərbdə Gürcüstan ərazisində zəlzələ qeydə alınıb.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Bildirilib ki, zəlzələ episentrdə 3 bala qədər hiss olunub. Ocağı 14 kilometr dərinlikdə yerləşən zəlzələ yaxın sərhəd rayonlarda zəif hiss edilib. Bundan başqa, yerli vaxtla saat 20:09-da Əli-Bayramlı stansiyasından 48 km cənub-şərqdə Neftçala rayonunda zəlzələ baş verib. Zəlzələ episentrdə 3 bala qədər hiss olunub. Ocağı 32 kilometr dərinlikdə yerləşən zəlzələ yaxın sərhəd rayonlarda hiss edilməyib.

# Azərbaycanda 21 nəfər koronavirusa yoluxub, ölən yoxdur




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 21 yeni yoluxma faktı qeydə alınıb, 12 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, xəstəlikdən ölüm halı qeydə alınmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 412 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 584 nəfər müalicə olunaraq sağalıb, 9 706 nəfər vəfat edib, aktiv xəstə sayı 122 nəfərdir.

# Ermənistan qocalan ölkələr sırasına daxildir

## Məlumatı BMT-nin Əhali Fondu yayıb



**Ermənistan qocalan ölkələr sırasına daxildir.**

**Trend-in Ermənistan KİV-lərinə istinadən məlumatına görə, bunu BMT-nin Əhali Fondunun demoqrafiya proqramının rəhbəri Anna Ovannisyan deyib.**

”BMT şkalasına uyğun olaraq, ölkədə qoca insanların payı ümumi əhalinin 7 faizindən çoxdursa, ölkə qocalan hesab olunur. Ermənistanda bu göstərici, təxminən 14 faizə bərabərdir. Bu isə o deməkdir ki, Ermənistan qocalan ölkələr sırasına daxildir”, - deyə o bildirib.

A.Ovannisyan qeyd edib ki, bu hal doğum indeksinin az olduğu və azalmağa doğru getdiyi ölkələrdə müşahidə olunur.

BMT-nin Əhali Fondunun proqnozlarına əsasən, 2050-ci ilədək qocalar dünya əhalsinin 22-24 faizini təşkil edəcək.

# "Mənə elə gəlir ki, Ağdama getsəm öləcəm"

## Qulu Ağsəs: “Nə bilim, məndə belə hiss var”

(səh.4)



# Çörək qıtlığı gözlənilmir, amma bahalaşma qaçılmazdır

## Növbəti dövrlərdə qiymətin necə dəyişməsi dünya bazarındakı dəyişikliklərdən birbaşa asılı olacaq

(səh.7)





**İlham Əliyev:** "Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ənənəvi olaraq həmişə bir-birini dəstəkləyir"

**Sadır Japarov:** "Biz bu dəyərlər əsasında azərbaycanlı qardaşlarımızla səmərəli işə hazırıq və inanırıq ki, birlikdə bütün çətinlikləri aradan qaldıracaq, daha yaxşı dünya qurulmasına öz töhfəmizi verəcəyik"

# Bəyannamə imzalandı

## Azərbaycanla Qırğızıstan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi

İsmayıl Qocayev

**"Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətlərimizi yeni səviyyəyə çatdıracaq". Bunu Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşdə deyib. Dövlət başçısı qeyd edib ki, iki ölkənin münasibətlərinin möhkəm təməli var:**

"Bu, xalqlarımızın qardaşlıq əlaqələridir. Bu gün biz dövlətlərarası münasibətləri belə bir möhkəm təməl üzərində, bu prinsiplər əsasında qururuq". Prezident gələn il diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd ediləcəyini vurğulayıb: "Bu, böyük tarixdir, çox iş görülüb, lakin hələ çox iş görülməlidir. Əminəm ki, həm beynəlxalq qurumlarda əməkdaşlıq çərçivəsində, həm də ikitərəfli formatda yeni nailiyyətlər, yeni nəticələr olacaq".

**"Beynəlxalq qurumlarda da bir-birimizi dəstəkləyəcək, ikitərəfli planda fəal işləyəcəyik"**

**Prezident İlham Əliyev bildirib ki, münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatır:** "Bu, çox əlamətdar hadisədir, çünki qarşılıqlı fəaliyyətdə olduğumuz 29 il ərzində biz, əlbəttə, bir sıra istiqamətlər üzrə fəal işləmişik, lakin münasibətlərimiz bu səviyyədə olmayıb. Strateji tərəfdaşlıq həm böyük üstünlüklər, həm də böyük məsuliyyət deməkdir. Əminəm ki, gələcəkdə də həmişə, beynəlxalq qurumlarda da bir-birimizi dəstəkləyəcək, ikitərəfli planda fəal işləyəcəyik. Bu gün biz investisiya layihələri ilə bağlı çox məsələləri müzakirə etdik. Qırğızıstanda və Azərbaycanda həyata keçirilmiş layihələr və onları qarşılıqlı faydalı şəkildə necə əlaqələndirməyin mümkün olması barədə fikir mübadiləsi aparmışıq. Kənd təsərrüfatında əməkdaşlığın inkişafı ilə bağlı məsələləri də müzakirə etmişik. Burada da böyük perspektivlər var. Yəni məsələlərin əhatə dairəsi genişdir".

**"Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir"**

**Prezident İlham Əliyev vurğulayıb ki, tərəflər arasında on sənəd imzalanıb:** "Mən onların arasında ikisini - Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumu xüsusi vurğulamaq istərdim. Hər iki sənəd bizim münasibətlərin xarakterini və formasını əsasən qabaqcadan müəyyən edəcək. Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və bizi məhz strateji xarakterli əməkdaşlığa kökləyir. Biz Dövlətlərarası Şura çərçivəsində həm ikitərəfli gündəliyə aid məsələləri, həm də regional və beynəlxalq problemləri daha effektli və fəal surətdə müntəzəm müzakirə edəcəyik". Prezident bildirib ki, Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ənənəvi olaraq həmişə bir-birini dəstəkləyir: "Biz Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyi müddətinin uzadılmasında Qırğızıstanın dəstəyinə görə minnətdarıq. Biz BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ECO çərçivəsində həmişə bir-birimizi dəstəkləyirik".

**"Bundan sonra da bütün məsələlərdə bir-birimizi dəstəkləyəcəyik"**

**Ölkə rəhbəri Şuşa şəhərinin gələn il türk dünyasının mədəniyyət paytaxtı elan olunması təşəbbüsünü dəstəklədiyinə görə Qırğızıstana təşəkkür edib:** "Biz bütün türk dövlətlərinin, o cümlədən Qırğızıstanın bu qərarını çox yüksək dəyərləndiririk. Şuşa şəhərinin bərpası üzrə planlarımız fəal icra olunur və icra olunacaq. Bu səbəbdən türk dünyasının mədəniyyət paytaxtı adını daşımaq kimi yüksək şərəf bizim üzərimizə qədim, gözəl şəhərimizi daha fəal bərpa etmək öhdəliyi qoyur. Başqa sözlə desək, bu gün müzakirə etdiyimiz bütün məsələlərə dair, - nümayəndə heyətinin üzvləri hələ dünən ünsiyyətdə olublar, - aramızda tam qarşılıqlı anlaşma var və biz imzalanmış sənədlərdə bunu təsbit etmişik. Təbii ki, bir daha qeyd etmək istəyirəm, bu sənədlər arasında ən əsası Strateji Tərəfdaşlıq haqqında Bəyannamədir. Biz bundan sonra da bütün məsələlərdə bir-birimizi dəstəkləyəcək, əməkdaşlıq edəcək və müvafiq strukturlarımızın fəaliyyətində konkret nəticələrə nail olacağıq".

**"Liman infrastrukturunun imkanları qırğız qardaşlarımızın sərəncamındadır"**

**Dövlət başçısı bəyan edib ki, ticari-iqtisadi sahəyə xüsusi diqqət yetirilib:** "Əmtəə dövriyyəsinin mövcud səviyyəsi bizi qane edə bilməz. Fikrimcə, nümayəndə heyətlərinin üzvlərinə verilən tapşırıqlar qarşılıqlı ticarətin həcmini qısa müddət ərzində artırmağa imkan verəcək. Nəqliyyat infrastrukturu ilə və Şərq-Qərb nəqliyyat dəhlizinin daha səmərəli fəaliyyət göstərməsi üçün səylərimizi necə birləşdirməklə bağlı məsələlər ətraflı müzakirə olundu. Azərbaycanda yüklərin bütün istiqamətlərə - həm Şimala, həm Cənuba, həm də Qərbə göndərilməsinə imkan verən müasir nəqliyyat infrastrukturu yaradılıb. Əlbəttə, bu imkanlar, bizim liman infrastrukturunun imkanları qırğız qardaşlarımızın sərəncamındadır. Bu gün biz Qırğızıstanın investisiya imkanları barədə də ətraflı danışdıq. Bildiyimiz kimi, Qırğızıstan prezidenti enerji infrastrukturu məsələləri ilə çox fəal məşğul olur. Fikrimcə, Qırğızıstan iqtisadiyyatının bu sektoru Azərbaycan şirkətlərinə maraqlı olardı. Bizim şirkətlərimizin müasir enerji müəssisələrinin, elektrik stansiyalarının, o cümlədən istilik elektrik stansiyalarının yaradılmasında müəyyən təcrübəsi var. Fikrimcə, burada səylərin birləşdirilməsinə və Azərbaycanın investisiya potensialına çox ehtiyac olardı. Əminəm ki, bu və digər məsələlər bu gün cənab Prezidentin Azərbaycanın aparıcı şirkətləri ilə görüşü zamanı daha ətraflı müzakirə ediləcək".

**"Azərbaycanlı qardaşlarımızla səmərəli işə hazırıq"**

**Sadır Japarov bildirib ki, bu gün dünyada baş verən dərin dəyişikliklər yeni münasibətlər qurmaq, ləyaqət və şərəf kimi əzəli türk dəyərlərini əsas götürmək üçün tarixi şans verir.** O deyib ki, türk məkanında bu yeni münasibətlər yeni dövrün dövlətlərarası qarşılıqlı münasibətlərinin nümunəsi olmalıdır: "Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin bizim baxışlarımıza şərik olmasını və onları tamamilə dəstəkləməsini dərk etmək mənə böyük məmnunluq verir. Mürəkkəb dövrlərdə güclü liderlər tələb olunur. Öz ölkəsini daha güclü, dünyanı isə daha yaxşı etmək üçün məsuliyyət onların üzərinə düşür. Buna görə də fürsətdən istifadə edib Prezident Əliyevə səmimi qəlbdən hər bir işində uğurlar, Azərbaycan xalqının rifahı və ümumbəşəri dəyərlər naminə ali məqsədlərə çatmaq üçün tükənməz enerji arzu etmək istərdim. Biz bu dəyərlər əsasında azərbaycanlı qardaşlarımızla səmərəli işə hazırıq və inanırıq ki, birlikdə bütün çətinlikləri aradan qaldıracaq, daha yaxşı dünya qurulmasına öz töhfəmizi verəcəyik. Bunun üçün bizim hər cür şəraitimiz var".

**"İki ölkə arasında hər hansı siyasi ziddiyyət yoxdur"**

**Qırğızıstan prezidenti bəyan edib ki, müasir Qırğızıstan-Azərbaycan münasibətlərinin qurduğumuz etibarlı təməli olmasaydı, qarşılıqlı əlaqələrimizin fəallığı mümkün olmazdı:** "Bu, xalqlarımız arasında dərin tarixi və mənəvi əlaqələrdir. Bu baxımdan məmnunluqla qeyd edirik ki, iki ölkə arasında hər hansı siyasi ziddiyyət yoxdur. Buna görə biz bu əlverişli şəraitdən istifadə etməyə və qurucu səylərimizi birləşdirərək iki ölkənin qardaş xalqları naminə əməkdaşlığımızı genişləndirməyə borcluyuq".

**"Azərbaycanla dostluq əlaqələrinin fəallaşması və genişlənməsi kursunun dəyişməzliyini təsdiqlədik"**

**Qırğız Prezidenti Sadır Japarov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələlərinə dair məzmunlu danışıqlar aparıb:** "Beynəlxalq və regional mövzulara dair fikir mübadiləsi etdik. Danışıqlar dövlətlərimiz arasında qardaşlıq münasibətlərini səciyyələndirən tam qarşılıqlı anlaşma, səmimiyyət və etimad şəraitində keçdi. Biz dostluq əlaqələrinin fəallaşması və genişlənməsi kursunun dəyişməzliyini təsdiq etdik". O, tarixi xarakterli mühüm sənədin imzalandığını bildirib: "Bu gün biz Qırğızıstan ilə Azərbaycan arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırdıq. İndicə müvafiq Bəyannaməni imzaladıq. Bu, tarixi xarakterli mühüm sənəddir və tamamilə aşkardır ki, bizim münasibətlərimizin inkişafında yeni mərhələyə hər iki tərəfin səyləri sayəsində çatmışıq. Bizim hədəfimiz beynəlxalq məkanlarda fəal qarşılıqlı əlaqə, siyasi dialoqun möhkəmlənməsi, daha sıx iqtisadi əlaqələr yaradılması və inkişaf etdirilməsi, iri investisiya layihələrinin birgə həyata keçirilməsi, habelə humanitar əməkdaşlığın daha da genişləndirilməsidir. Əlbəttə, bu, etibarlı təməl, xalqlarımız arasında dərin tarixi və mənəvi əlaqələr olmadan mümkün olmazdı".

**"Dövlətlərarası şura əməkdaşlığın daha da genişlənməsinə şərait yaradacaq"**

**Japarov vurğulayıb ki, dövlətlərarası şura əməkdaşlığın daha da genişlənməsinə şərait yaradacaq:** "Ticari-iqtisadi sahədə əməli əməkdaşlıq üçün geniş imkanlarımız var. Bu gün biz iqtisadiyyatımızın liberallaşdırılmasına yönəlmiş addımlar atırıq. İnvestisiya qanunvericiliyi təkmilləşdirilir, bununla əlaqədar Qırğız Respublikasının digər ölkələrlə investisiya əməkdaşlığı fəallaşır. Odur ki, biz Azərbaycanın biznes dairələrini bizim ölkədə investisiya imkanlarını fəal öyrənməyə və azad iqtisadi zonaların, güzəştli vergi və gömrük rejimlərinin öyrənilməsinə diqqəti artırmağa dəvət edirik. Şübhəsiz, bu, ölkələrimiz arasında işgüzar əməkdaşlığın fəallaşmasına kömək edəcək. Fəal mədəni-humanitar əməkdaşlıq vasitəsilə ölkələrimizin xalqlarının qarşılıqlı zənginləşməsini qeyd etməyə şadam. Mədəniyyət xadimləri müntəzəm mübadilələr edir, xalqlarımız arasında əsl dostluq körpülərinin möhkəmlənməsinə kömək edirlər. Bundan əlavə, ölkələrimiz BMT, ATƏT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli formatda sıx qarşılıqlı fəaliyyət göstərir. Qırğızıstan Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun müşahidəçi səviyyəsinə qədər artırılmasını hərtərəfli dəstəkləyir. Qarşılıqlı münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə çatdırılması üçün hər cür şərait yaranıb. Əminəm ki, bu gün yaradılan dövlətlərarası şura hökmən ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsinə və möhkəmlənməsinə şərait yaradacaq".

# Əhməd Cavadın 130 illiyi qeyd ediləcək

## Prezident İlham Əliyev Sərəncam imzalayıb



**Prezident İlham Əliyev Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam verib.**

**Sərəncamda qeyd edilir ki, 2022-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın (Cavad Məhəmmədəli oğlu Axundzadənin) anadan olmasının 130 illiyi tamam olur.**

Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir. Əhməd Cavad daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olmuş, dövrün parlaq şəxsiyyətləri sırasında 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq, sovet totalitarizminin qurbanına çevrilmişdir.

Sərəncamla Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alınır:

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli şair Əhməd Cavadın 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

- *Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.*

# Tərtərə yeni hərbi prokuror təyin edilib



**Tərtər rayonunun hərbi prokuroru işdən çıxarılıb. Bununla bağlı Baş prokuror Kamran Əliyev əmr imzalayıb.**

Əmrə əsasən, Tərtər rayon hərbi prokuroru Hümmət Məmmədov tutduğu vəzifədən azad edilərək, Respublika Hərbi Prokurorluğunun Hərbi Prokurorluqlarda İstintaqa Nəzarət şöbəsinin rəisi təyin edilib.

Baş prokurorun digər əmri ilə Respublika Hərbi Prokurorluğunun İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi, ədliyyə polkovnik-leytenantı Emin Vəliyev tutduğu vəzifədən azad edilərək, Tərtər rayonunun hərbi prokuroru təyin olunub.

# Ermənistan sülh müqaviləsini imzalamağa məhkumdur

## Rusiya tələsir, əks halda bölgəyə digər güclər daxil olur



**Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan çərşənbə axşamı Azərbaycanla üçtərəfli formatda əməkdaşlığın intensivləşdirilməsi barədə razılığa gəliblər. Putinlə Paşinyanın görüşünün detalları açıqlanıb.**

Rəsmi məlumata görə, tərəflər iki məsələdə razılaşıb. Birincisi, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə birgə komissiyanın yaradılması prosesini sürətləndirməkdir. İkincisi, kommunikasiyanın açılması və iqtisadi əlaqələrin bərpası üzrə Üçtərəfli İşçi Qrupunun fəaliyyətinin aktivləşdirilməsidir.

Həmçinin Prezident Putin və baş nazir Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesinin başlanmasını alqışlayırlar.

**Görüşün detallarını "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, Azərbaycanla Ermənistan sülh müqaviləsi imzalamalıdır. Əks halda bölgəyə digər güclər daxil olur:**

"Rusiyanın milli maraqlarına uyğun deyil. Ona görə, ikitərəfli görüşü üçtərəfliyə çevirmək cəhdi göstərdi, uğurlu alındı. Sərhədlərin müəyyənləşməsi sülh müqaviləsinin əsas şərtidir. Bunun üzərindən tezliklə mexanizmlərin yaradılması, sərhədlərin aydınlaşması prosesi surətlənməsi razılığına gəliblər. Rusiya məsələdə təşəbbüs həyata keçirir. Ermənistan Qarabağ məsələsini Rusiyanın və Azərbaycanın üstünə yükləməkdə maraqlıdır, özü isə sıyrılmaq üçün cidd-cəhd nümayiş etdirir".

**Aygün Tahir**

# Radio tarixi haqqında yeni araşdırma

**Bakı Dövlət universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, radio problemləri üzrə tanınmış mütəxəssis Sevinc Məmmədovanın "Qovorit Baku" adlı monoqrafiyası işıq üzü görüb.**




"Sabah" nəşriyyatında nəşr olunmuş kitabda Bakı radiosunun yayıma başladığı ilk dövrün tarixi-xronoloji təsviri, yerli qəzetlərin radiostansiyanın fəaliyyəti haqqında yazıları və ilk verilişlərin təhlili verilmişdir. Müəllif tarixi sənədlərə istinad edərək ötən əsrin 20-30-cu illərində beşiyi başında Ü.Hacıbəyov, M.S.Ordubadi, M.Maqomayev kimi qüdrətli sənətkarların dayandığı Azərbaycan radiosunun ölkənin ictimai-siyasi və mədəni həyatına təsiri barədə ətraflı söhbət açıb.

Kitabın elmi redaktoru, professor Qulu Məhərrəmli maraqlı tədqiqat işinə yazdığı girişdə qeyd etmişdir ki, belə araşdırmalar bir daha təsdiq edir ki, radio təkcə dinləyicilərin qulaq yoldaşı deyil, həm də zamanın və təmsil etdiyi cəmiyyətin səs yaddaşıdır, o bəzən milli ruhun ifadəçisi kimi də çıxış edir. Bu səbəblərdən radionun fəaliyyəti həmişə ciddi maraq doğurur. Tədqiqatçı-alim S.Məmmədovanın Azərbaycan radiosunun fəaliyyətinin ilk dövrünün dolğun mənzərəsini yaradan araşdırması məhz bu maraqdan qaynaqlanır.

Radio haqqında kütləvi tirajla çap olunmuş kitabın elmi məsləhətçiləri görkəmli radio tədqiqatçısı, professor Yalçın Əlizadə və BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Allahverdi Məmmədlidir.

**Leyla Hacıyeva**

# Məmurlar büdcədən yenə vəsait yeyirlər

## Millət vəkili Hesablama Palatasından həmin vəzifəlilər barədə məlumat istəyib



**"2021-ci ildə 44 audit aparılsa da, 50 faizi hesabatda göstərilməyib". Bunu Milli Məclisdə Hesablama Palatasının 2021-ci ildə fəaliyyəti haqqında" hesabatın müzakirəsi zamanı millət vəkili Vahid Əhmədov deyib. Deputat bildirib ki, satınalmalarla, tenderlərlə bağlı məsələlər hər il Hesablama Palatası tərəfindən göstərilir. Amma biz bunlarda hansısa inkişaf görmürük:**

"Dövlət vəsaitinin xərclənməsində pozuntular daha pis səviyyədə davam edir. Burada Hesablama Palatası öz mövqeyini ortaya qoymalıdır. May ayında dövlət büdcəsinin icrasına baxacağıq. Büdcənin icrası ilə bağlı məsələlərə ildə 3, 4, bəlkə də 5 dəfə baxılmalıdır. Bunun üçün Hesablama Palatası bizə müraciət edə bilərdi. Bununla bağlı "Hesablama Palatası haqqında" qanuna dəyişiklik edə bilərik. May ayında Milli Məclis artıq büdcənin icrasına baxanda pozuntularla bağlı heç nə edə bilməyəcək. Çünki bu vəsaitlər artıq xərclənib. Buna qədər Hesablama Palatası bu icraya nəzarət edə bilər".

**"Pandemiya dövründə 190 manatın verilməsində bir çox qanunsuzluq vardı"**

**Millət vəkili Əli Məsimli nəzarət tədbirləri nəticəsində bərpa olunan 30 milyon manatdan çox məbləği simvolik adlandırıb. Deputat bildirib ki, aşkarlanan pozuntular fonunda bu rəqəm dəryada damladır:** "Sosial proseslərin tənzimlənməsi istiqamətində aparılan tədqiqat yarımçıq xarakter daşıyır. Pandemiya dövründə 190 manatın verilməsində bir çox qanunsuzluq vardı. Qeydiyyata alınan işsizlərin sayı ilə 190 manat verilən işsizlərin sayı uyğun gəlmirdi. Saxta statistikanın axırına çıxmalı, Azərbaycanda real işsizlərin sayını ortaya qoymalıyıq". Parlament üzvü vurğulayıb ki, digər problem kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsindədir: "Bizim statistikada istehsal etdiyimizi göstərən buğda qədər də xaricdən alırıq. Bu, mümkün deyil. Yaxşı buğda növlərinin yetişdirilməsi üçün ayrılan vəsait yeyintiyə gedib və istifadə olunmayıb. Bunu siz də göstərmisiniz. Bu fakt kitabda qalmamalı, əlaqədar təşkilatlara göndərilməlidir".

**"Avropada yolun işarələnməsi 131 avroya başa gəlir, bizdə isə 1850 manata müqavilə bağlanıb"**

**Millət vəkili Fazil Mustafa deyib ki, ötən dəfə Bakı Nəqliyyat Agentliyi (BNA) ilə bağlı məsələni müzakirə ediblər:** "Məlum oldu ki, Avropada 131 avroya başa gələn işarələnmə Azərbaycanda 1850 manata müqavilə bağlanıb. Bu nə deməkdir?!". F.Mustafa Hesablama Palatasının son illərdəki fəaliyyətini müsbət qiymətləndirib: "Bunun əsas səbəbi həm də Milli Məclisdə yaranan şəffaflıqla bağlıdır. Milli Məclisdə tenderlər açıq elan olunub. Qaranlıq işlər ortadan qalxıb. Kadr dəyişiklikləri aparılıb. Buna görə də düşünürəm ki, hesabat çox əhatəli idi.

Çox istərdim ki, qurum bu ənənəni davam etdirsin. Bu təmaslar Hesablama Palatasının Milli Məclisə qapılarının açılması deməkdir. Bu, əməkdaşlığın inkişafı üçün ən böyük amillərdən biridir. Hesabatda bərpası mümkün olmayan vəsaitlər məsələsi diqqətimi cəlb elədi. Əslində dövlət büdcəsi əla mahiyyət daşıyır, yəni bərpası mümkün olmayan bir şey olmamalıdır. Əgər nəsə varsa, bu, korrupsiya elementidir".

**"İctimai nəzarəti artırmalıyıq. Bununla bağlı dinləmələr keçirə bilərik"**

**Millət vəkili Rüfət Quliyev Hesablama Palatasından büdcədən oğurlayan məmurlar barədə məlumat istəyib:** "Son bir neçə ildə Hesablama Palatasının peşəkarlığının artmaqda olduğu göz önündədir. Dəyişikliklər artıq özünü göstərir. Biz büdcədən oğurlayan məmurların aqibəti barəsində məlumat istədiyimizi daha əvvəllər demişdik. Büdcəyə hesabat ilində 34 milyona yaxın vəsait bərpa olunub. Amma yenə də bəzi məmurlar büdcədən xımır-xımır vəsaitləri yeyirlər. Biz buna görə ictimai nəzarəti artırmalıyıq. Bununla bağlı dinləmələr keçirə bilərik. Hesablama Palatasının hesabatında hüquq-mühafizə orqanlarına verilən məlumatların aqibəti ilə bağlı məlumat da əksini tapsa, yaxşı olar". R.Quliyev Azərbaycanda insanların 90 faizinin İcbari tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətindən narazı olduğunu vurğulayıb: "Yüzlərlə adam bu şikayətlərlə bizə müraciət edir. Biz də İTSDA-ya müraciət edirik və minlərlə məsələ bu gün hələ də həllini tapmayıb".

**"Mühasiblər rəhbərdən çox asılıdır"**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili mühasiblərin müstəqil olmamasından şikayətlənib.** Onun sözlərinə görə, Hesablama Palatasının monitorinq fəaliyyətinin daha da genişləndirilməsinə ehtiyac var: "Mühasiblərin müstəqillik səviyyəsini artırmaq lazımdır. Mühasiblər bu gün rəhbərdən çox asılıdır. Mühasib bir çox hallarda təzyiqə məruz qalır. Ancaq buna baxmayaraq, mühasiblər qanun pozuntusuna yol verməməlidirlər. Ona görə də mühasibin işə təyin olunması, işdən azad olunması məsələsinə baxmaq olar".

**"Hesablama Palatasının dövlət büdcəsi üzrə rəyi çox cəsarətli idi"**

**Millət vəkili Qüdrət Həsənquliyev deyib ki, parlamentin hazırladığı dəyişikliklər daha çox tənzimləyici xarakter daşıyır:** "Hər orqanın özünün səlahiyyətləri var və öz səlahiyyətləri çərçivəsində hər kəs ümumi işə töhfə verməyə çalışmalıdır. Dövlətin götürdüyü kreditlər yalnız Milli Məclisin razılığı il olmalıdır. Çünki dövlət büdcəsindən ayrılmalar Milli Məclisdə bölünür". Deputat onu da bildirib ki, Hesablama Palatasının dövlət büdcəsinə, DSMF-nin büdcəsinə verdiyi rəylər çox cəsarətli idi: "Bəzi həmkarlar reallıqları unudurlar və Hesablama Palatasından daha cəsarətli addımlar, rəylər gözləyirlər. Amma nəzərə almırlar ki, biz əlimizdə olanı da itirə bilərik. Mövcud reallıqlar çərçivəsində Hesablama Palatası əlindən gələni edir".

**İsmayıl Qocayev**



# Ermənistanla sərhədlər sülh müqaviləsi ilə açılacaq

## Hulusi Kılıç: "Tarixini bilməyən millətlərin gələcəyi qaranlıqdır"

**Aprelin 20-də Bakı Dövlət Universitetində (BDU) diplomat, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıçın "44 gün Vətən müharibəsi, Hulusi Kılıç informasiya cəbhəsində" kitabının təqdimatı keçirilib.**

"Şərq"in məlumatına görə, kitabda Hulusi Kılıçın müharibə günlərində media quruluşları ilə fəal əməkdaşlığının real nəticələri öz əksini tapıb.

Görüşdə Türkiyə Səfirliyinin Mətbuat müşaviri Hüseyn Altınalan, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, fakültənin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova, Multimedia və elektron kommunikasiya kafedrasının rəhbəri Allahverdi Məmmədli, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova və fakültənin professor-müəllim heyəti də olub.




Tədbiri giriş sözü ilə açan Jurnalistika fakültəsinin dekan müavini Samir Xalidoğlu qonaqları salamlayaraq mərasimi açıq elan edib.

Təqdimat mərasimi şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutu ilə başlayıb.

Diplomat Hulusi Kılıçın fəaliyyəti ilə bağlı videoçarx yayımlandıqdan sonra ona çıxış üçün söz verilib.

**H.Kılıç toplantını tarixi an kimi dəyərləndirib. Ortaq tarixə və keçmişə malik iki qardaş dövlətin münasibətlərindən danışıb:**

"Atatürk deyib: "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir". 1991-ci ildə Azərbaycan müstəqillik qazananda onu ilk tanıyan dövlət Türkiyə oldu. Bu çox önəmlidir. Azərbaycanı digər ölkələrin tanıması üçün hər yerə müraciət edirdik. Sovet sistemindən çıxan Azərbaycan ordusuz idi. Elçibəyi sevirik, başımızın tacıdır. Dövlət quruculuğu, siyasət isə ayrıdır. 1993-cü ildə Kəlbəcər işğal ediləndən bəri Türkiyə Ermənistanla sərhədlərini bağladı. Həmin sərhədlər sülh müqaviləsi ilə açılacaq".

Sabiq səfir müəllifi olduğu kitabı yazma tarixçəsini də tələbələrlə bölüşüb:

"Müharibə vaxtı Türkiyədə, Azərbaycanda televiziyalara müsahibə verdim. Bədənim orda, lakin ağlım və ruhum cəbhədə idi. Sonradan yazılarımın, müsahibələrimin çox olduğunu gördüm. Çıxışları jurnalist Günel Yaz bir araya topladı. Kitab şəklinə salıb, gəlirini isə Yaşat Fonduna ianə etmək qərarına gəldik".

Ardınca çıxışçılar - Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika kafedrasının dosenti, siyasi elmlər doktoru Sabir Məmmədli, Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru Nəsiman Yaqublu və dekan Vüqar Əliyev adıçəkilən kitabın əhəmiyyətindən, sabiq səfirin fəaliyyətinə dair məqamlara diqqət çəkiblər.

Diplomat sonda tələbələrə uğurlar arzulayıb:

"Sizlər bizim gələcəyimizsiniz. Atatürk demişdi: "Cümhuriyyəti biz qurduq, bunu gənclər yaşadacaq". Dostlar, tariximizi yaxşı öyrənin. Tarixini bilməyən millətlərin gələcəyi qaranlıqdır. Rəhbərinizi, millətinizi sevin. Biz həyatda qaldığımız müddətdə sizlərə dəstək verəcəyik".

*H.Kılıç tədbir iştirakçılarına imzalı kitabını da hədiyyə edib.*

**Aygün Tahir**

# Rusiyanın adı yoxdur

## Çin Almaniyaya yeni marşrut xətti açıb




## Bu layihə Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizində rolunu əhəmiyyətli dərəcədə artıracaq

**İsmayıl Qocayev**

**Çin hökuməti Sian şəhərindən Avropaya yükdaşımalar üçün Rusiyadankənar ərazilərlə yeni dəmiryol marşrutunu işə salıb. Yeni marşruta görə Çindən yüklər qatar, Xəzər və Qara dənizi vasitəsi ilə Almaniyaya çatdırılacaq.**

Yüklər Qazaxıstan, Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan, Slovakiya və Çexiyadan keçəcək. Sian şəhər gömrük idarəsinin saytında yerləşdirilən məlumata görə, 316 ton ümumi çəkidə olan 42 konteynerdən ibarət ilk qatar aprelin 13-dən Siandan yola salınıb. Marşrutun uzunluğu 11,3 min kilometr təşkil edəcək. Çinin "Sinxua" agentliyinə danışan "Xi'an Free Trade Port Construction and Operation Co" şirkətinin rəhbəri Yuan Syaotsziyanın dediyinə görə, indiyədək Çinlə Avropa arasında az istifadə olunan bu yolla daşımaların artırılması həm Çin, həm də digər ölkələrin şirkətləri üçün yeni bazarlar açır. Sian gömrük idarəsi isə bəyan edib ki, bu, şəhərlə Avropa arasında yük qatarlarının hərəkət etdiyi 16-cı marşrutdur. Bildirək ki, hazırda Çinin Avropaya 16 əsas yük qatarı marşrutu var və onlar "Kəmər və Yol" layihəsinin 45 ölkə və regionundan keçib. Ekspertlərə görə, Çinin bu layihəsi Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizində rolunu əhəmiyyətli dərəcədə artıracaq.

**Yeni marşrutun əhəmiyyətini "Şərq"ə analiz edən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bir məqama diqqət çəkib. Analitik vurğulayıb ki, həmin marşrut xəttində Rusiyanın adı yoxdur. Ekspert bunun səbəbini belə şərh edib:** "Qara dəniz zonasında müharibə gedir. Marşrut xətti siyahısına bir sıra ölkələrin salınmaması Rusiya-Ukrayna müharibəsi və bu savaşın təhdidləri ilə bağlıdır. Avropa ölkələri Çin-Qərb münasibətlərində Rusiyasız addım atmağın tərəfindədirlər. Bununla bağlı konkret tələb qoyulub. O baxımdan 11 min kilometrlik marşrut üzərində təhlükəli zonalar, ölkələr yoxdur. Ancaq məsələ ondadır ki, qatar Azərbaycandan Rumıniyaya getmək üçün Türkiyə ərazisindən keçməlidir. Çindən Avropaya gedən marşrut xətti üzərində Ermənistan da yoxdur. Bu da vacib məqamdır. Dünyada artıq dəmiryolu "müharibələri" gedir. İndiki mərhələdə Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizində rolu mütləq şəkildə artacaq. Ölkəmizin Rusiya, Ermənistan və Gürcüstanla həmsərhəd olması Azərbaycana bu sahədə unikal üstünlüklər gətirə bilər".

# Kreml Brüssel prosesini dəstəkləmədi

## Rusiya Qarabağda problemlər yaratmaqda maraqlıdır



**Moskvada Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasındakı danışıqlar yekunlaşıb. Kremlin mətbuat xidmətindən yayımlanan xəbərdə deyilir ki, tərəflər Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə komissiyanın yaradılması prosesini sürətləndirmək barədə razılığa gəliblər.**

Azərbaycan, Ermənistan və Rusiya liderlərinin müntəzəm görüşləri çərçivəsində konstruktiv işin davam etdirilməsinin və üç liderin noyabrın 10-da imzaladığı razılaşmaların ardıcıl şəkildə həyata keçirilməsinin tərəfdarı olduqları bildirilib. Tərəflər Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin birgə sədrliyi ilə Cənubi Qafqazda bütün iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının qarşısının alınması üzrə Üçtərəfli İşçi Qrupun fəaliyyətini aktivləşdirmək də qərara alınıb.

**Görüşü şərh edən "Atlas"Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, il yarımdır Kreml eyni məzmunlu xəbərlər yayımlayır, ancaq ortada ciddi nəticə yoxdur.** Politoloqun sözlərinə görə, Kremlin vasitəçiliyi ilə nə sərhədlərin müəyyənləşməsiylə bağlı danışıqlar intensivləşib. Nə də 3 ölkənin baş nazirlərinin müavinləri xətlərin açılması istiqamətində irəliləyiş əldə ediblər: "Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvaya səfər etmədən bir gün əvvəl Rusiya prezidentinin mətbuat katibi Dmitri Peksov Paşinyanın Kremldə keçirəcəyi görüşün hazırkı beynəlxalq vəziyyətdə xüsusi əhəmiyyət kəsb edəcəyini bildirmişdi. Buna görə də Ermənistan müxalifəti və Qarabağ separatçıları Nikol Paşinyanın Moskvada Ermənistan üçün məqbul olmayan hansısa sənədə imza atacağından narahat idilər. Ermənistandakı "Qarabağ klanı" ilə Qarabağdakı separatçıların Rusiya ilə sıx əlaqələri var. Buna baxmayaraq, onlar Ukraynada ağır müharibənin fonunda hesab edə bilərdilər ki, Kreml eyni ilə Brüssel kimi Nikol Paşinyanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcbur edə bilər. Müxtəlif istiqamətlərdən Paşinyana qarşı təzyiqlər başlamışdı. Paşinyan Rusiyaya səfər etmədən bir gün əvvəl Qarabağ separatçılarının "başçısı" Araik Arutyunyan və separatçıların "təhlükəsizlik şurasının sədri" Vitali Balasanyan İrəvana gedərək baş nazirlə görüşdülər. Rusiya və Ermənistan saytlarının məlumatına görə, Araik Arutyunyan Paşinyandan tələb etdi ki, Ermənistanın baş naziri "Qarabağın müstəqillik" mövqeyindən geri çəkilməsin. Brüsselin Paşinyana mesajı aydındır: "Azərbaycanın ərazi bütövlüyünü tanımalısan, Qarabağla bağlı "status" tələbindən əl çəkməlisən". Moskva da Paşinyana eynisini desəydi, məsələni bitmiş hesab etmək olardı. Ancaq Kreml Brüsselin dediyini təkrarlamadı. Paşinyan Moskvaya getməyə hazırlaşdığı saatlarda ona Avropa İttifaqının rəhbəri Şarl Mişeldən zəng gəldi. Bu telefon zəngi Kremli narahat etdi".

**E.Şahinoğlu vurğulayıb ki, Rusiya hakimiyyətinə yaxın siyasi ekspertlər Şarl Mişelin Moskva səfəri öncəsi Paşinyana telefon zəngini Brüsselin Rusiya əleyhinə addımı kimi dəyərləndiriblər:** "Vladimir Putin Kremldə Nikol Paşinyanla görüşün mətbuata açıq hissəsində dedi ki, Qarabağda hələ çox problem var. Bununla Kreml sahibi bölgədəki vəziyyətdən detallarına qədər xəbərdar olduğunu nümayiş etdirib. Bəli, Qarabağda problemlər var və bu problemi yaradanlar Rusiya hərbçiləriylə erməni separatçılarının birgə fəaliyyətidir. Vladimir Putinin bu açıqlamasından aydın oldu ki, Rusiya postlarının və Qarabağda Rusiya bayraqlarının sayının artırılması təlimatını elə Kreml sahibi verib. Putin daha sonra dedi ki, Paşinyanla Qarabağın təhlükəsizliyi məsələsini müzakirə edəcək. Kreml sahibi bu cümləsiylə Qarabağın Ermənistana dəxli olmadığı reallığını qəbul etmək istəmir. Rusiya Prezidenti Azərbaycana aid Qarabağ mövzusunu Ermənistanın baş naziri ilə müzakirə edirsə, burda xoş niyyət yoxdur. Nikol Paşinyanın və daha əvvəl Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyanın qısa müddət ərzində Moskvaya çağrılmasının tək səbəbi var. Kreml Avropa İttifaqının vasitəçiliyini əngəlləmək istəyir. Brüssel Kremlin planlarından xəbərdardır və bilir ki, Moskva İrəvana təzyiq etməklə gedişatı poza bilər. Ona görə Avropa İttifaqının rəhbəri Şarl Mişel Paşinyana Moskvaya yollanmadan əvvəl zəng edib və izah edib ki, o Kremlin Brüsselin planlarını pozmağa imkan verməsin. Şarl Mişel Cənubi Qafqaz üzrə nümayəndəsi Toivo Klaarı Bakıya göndərdi. Paşinyan Moskvada ikən Prezident İlham Əliyev Toivo Klaarla görüşdü və ona bildirdi ki, rəsmi Bakı Brüsselin faydalı vasitəçiliyinə önəm verir. Əslində Paşinyan da Brüsselin vasitəçiliyindən faydalanmaq istəyir, sadəcə ona Kreml və Rusiyanın Ermənistandakı vassalları mane olur".

**İsmayıl Qocayev**

# Baş nazir Amerikanın maraqlarını Moskvaya satdı

## Paşinyan çalışacaq ki, Rusiyanın əliylə alternativlərini zərərsizləşdirsin



## Rusiya hazırda "yaralı ayı"dır və istənilən addımı ata bilər

**Amerika Birləşmiş Ştatlarının Qafqazda danışıqlar üzrə baş müşaviri Endryu Şofer regiona səfəri çərçivəsində Ermənistanda olub. Ermənistan mətbuatı onu "ATƏT-in Minsk qrupunun amerikalı həmsədri" kimi təqdim etməyə çalışsa da, ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosu tviterdə onu Qafqazda danışıqlar üzrə baş müşavir adlandırıb.**

Bununla aydın olub ki, Vaşinqton Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə vasitəçilik missiyasını həyata keçirən həmsədrlik formatından imtina edib. Ağ Ev bundan sonra Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesində müstəqil formada Qafqaz danışıqları üzrə baş müşaviri vasitəsilə birbaşa iştirak edəcək. Şofer İrəvanda Xarici işlər naziri Ararat Mirzoyanla danışıqlar aparıb. Görüş zamanı Ermənistan-Azərbaycan arasında hərtərəfli sülh müqaviləsi üzrə danışıqların başlanması ilə bağlı fikir mübadiləsi aparılıb. Erməni "hərbi əsirlərin" qaytarılması və "erməni mədəni irsinin" qorunması məsələlərinin müzakirə edildiyi bildirilib. Dövlət Departamentinin yaydığı məlumatda Ağ Evin Azərbaycan Prezidenti İlham Əliyevin sülh danışıqlarına sadiqliyini, Baş nazir Nikol Paşinyanın Azərbaycanla sülh danışıqları ilə bağlı bəyanatlarını alqışladığı vurğulanıb. Qeyd olunub ki, dövlət katibinin köməkçisi Donfrid ABŞ-ın prosesə töhfə vermək məqsədi ilə Endryu Şoferi regiona göndərib.

**Amerikanın son günlər Cənubi Qafqazda yenidən aktivləşməsini "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru Cümşüd Nuriyev bildirib ki, Ağ Evin məqsədi regionda özünü Rusiyanın alternativi kimi təqdim etməkdir. Professora görə, Azərbaycan tərəfinin Minsk qrupunu "siyasi ölü" hesab etdiyi Vaşinqtona məlumdur:** "Ermənilərin hələ də "həmsədr" yuxusu görməsi əhəmiyyət kəsb etmir. Öz yalanlarına artıq özləri də inanmırlar. Amerika böyük "diplomat ordusu" ilə İrəvanda səfərdədir. Amma Rusiya həqiqi ordu ilə Ermənistandadır. Düzdür, Paşinyanı hakimiyyətə gətirən də, onu təkrar seçdirən də ABŞ-dır. Ancaq hakimiyyətin dadını bilən Ermənistan baş naziri Qərbi açıq dəstəkləməklə öz kreslosunda çox otura bilməyəcəyini anladı. Ona görə də Amerikanın maraqlarını Moskvaya satdı. Paşinyanın Rusiyaya səfəri, Prezident V.Putinlə görüşü və müzakirə olunan məsələlər bunu aydın şəkildə göstərdi. Paşinyan çalışacaq ki, Rusiyanın əliylə alternativlərini zərərsizləşdirsin. Rusiya hazırda "yaralı ayı"dır və istənilən addımı ata bilər. Erməni baş nazir yaxşı bilir ki, İrəvanın ipləri Kremlin əlindədir. Ukraynanın işğalı erməni siyasilər üçün göz dağı oldu. Ermənistanda belə qənaət var ki, "Qərb ölkələri Ukraynanı Rusiya qarşısında tək qoydu". O baxımdan indiki məqamda ABŞ-ın Cənubi Qafqazda həlledici rol icra etməsi qeyri-mümkündür. Ağ Ev Rusiyanın nəzarətində olan Ermənistan rəhbərliyinə, İrəvan hökumətinə öz maraqlarını qəbul etdirə bilməyəcək".

**C.Nuriyevin fikrincə, bütün bunlara rəğmən, ABŞ Qarabağ ətrafında cərəyan edən proseslərdə iştirakda maraqlıdır:** "Vaşinqton ilk növbədə Moskvanı zərərsizləşdirməyə çalışır. Rusiya Ermənistanla yanaşı, Gürcüstanda da güclüdür. Amerika ilk növbədə Ermənistanı Rusiyanın caynağından xilas etmək istəyir. Lakin ABŞ bölgədə mövqeyini gücləndirmək niyyətindədirsə, bundan ötrü başqa addımlar atmalıdır. Ermənistan Cənubi Qafqazın kilid dövləti deyil. Amerika Azərbaycanla əlaqələri inkişaf etdirməli, 907-ci düzəlişi aradan qaldırmalıdır. Həmçinin, Qarabağın bərpası prosesində rəsmən iştirakını bəyan etməli, əməkdaşlığı genişləndirməlidir".

**İsmayıl Qocayev**



# Təkliflər də səsləndi

## Media nümayəndələri üçün inklüziv təhsil mövzusunda seminar keçirilib

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə aprelin 19-da müxtəlif media qurumlarını təmsil edən 16 nümayəndənin iştirakı ilə inklüziv təhsil mövzusunda seminar keçirilib.**

"Şərq" xəbər verir ki, "Regional İnkişaf" İctimai Birliyi tərəfindən bp və tərəfdaşlarının dəstəyi ilə icra olunan "Keyfiyyətli inklüziv təhsildən istifadə imkanlarının genişləndirilməsi" layihəsi çərçivəsində təşkil edilən seminarın məqsədi media nümayəndələrinin inklüziv təhsilin mahiyyəti, qanunvericilik bazası, ölkədə bu istiqamətdə görülən işlər barədə ətraflı məlumatlandırmaq və inklüziv təhsilin mediada daha geniş və düzgün işıqlandırılmasını təşviq etməkdir.

Seminarın açılışında çıxış edən layihə rəhbəri Fərid Süleymanov "Regional İnkişaf" İctimai Birliyi tərəfindən 2018-ci ildən icra olunan inklüziv təhsil layihələri çərçivəsində ölkəmizdə inklüziv cəmiyyətin və təhsilin inkişafı sahəsində bir sıra işlərin görüldüyünü və müsbət nəticələrin əldə olunduğunu, bu istiqamətdə fəaliyyətlərin davamlı xarakter aldığını iştirakçıların diqqətinə çatdırıb. Fərid Süleymanov çıxışında bildirib ki, müvafiq sahədə layihələrin uğurla icrası nəticəsində Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun Şamaxı, Quba, Şəki, Cəlilabad və Ağcabədi filiallarında, eləcə də Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən 4 orta ümumtəhsil məktəbində İnklüziv Resurs Mərkəzləri yaradılıb və tam təchiz edilib, beynəlxalq ekspertlərlə birlikdə İnklüziv Təhsil üzrə Müəllim İnkişafı Proqramları hazırlanmış və onlar əsasında 1000 ibtidai sinif müəllimi, 250 məktəb direktoru, 400 müəllim-professor heyəti, 2000-dən çox tələbə, 600-dən çox valideyn inklüziv təhsil üzrə təlimləndirilmiş, ölkəmizdə inklüziv təhsil üzrə qanunvericiliyin təhlili aparılaraq "Azərbaycanda İnklüziv Təhsil Siyasətinin İcmalı" hesabatı hazırlanmış və onun aidiyyəti dövlət qurumlarının, millət vəkillərinin, beynəlxalq təşkilatların mütəxəssislərinin iştirakı ilə müzakirələri keçirilib, 2 beynəlxalq dərslik və 10-dan çox əyani vəsait tərcümə olunaraq çap edilib, ali və orta məktəblərə paylanılıb, inklüziv təhsilə dair portal yaradılaraq ictimaiyyətin istifadəsinə verilib, ADPU-nun "İbtidai təhsilin təşkili", "məktəbəqədər təhsil", "təhsildə sosial-psixoloji xidmət" və "korreksiyaedici təlim" ixtisaslarının kurikulumuna inklüziv təhsil fənni daxil edilib, inklüzivliyə dair videoçarxlar, animasiyalı posterlər, müxtəlif adda 50000-dən çox məlumatverici çap materialları hazırlanaraq paylanılıb və yayımlanıb, Heydər Əliyev Mərkəzində Beynəlxalq Əlillər Günü münasibəti ilə "Fərqliyik, bərabərik" adlı uşaq festivalı keçirilib, beynəlxalq ekspertlərin iştirakı ilə onlayn beynəlxalq konfrans keçirilib və digər təbliğat-təşviqat işləri aparılıb.

Medianın İnkişafı Agentliyinin əməkdaşı Səbinə Seyidova çıxışında əlillik və inklüziv təhsilə düzgün münasibətin formalaşmasında, inklüziv təhsil və onun əhəmiyyəti barədə geniş ictimaiyyətin maarifləndirilməsində medianın xüsusi rolunu şərh edərək, bu sahədə medianın qarşısında duran vəzifələrdən danışıb.

Seminarın sonunda media nümayəndələri ölkəmizdə inklüziv cəmiyyətin və təhsilin inkişafı ilə bağlı təkliflərini səsləndiriblər.

# "Mənə elə gəlir ki, Ağdama getsəm öləcəm"

## Qulu Ağsəs: "Nə bilim, məndə belə hiss var"





**Redaksiyada iş başlayandan səs düşdü ki, bu gün (20 aprel) Qulu Ağsəsin ad günüdü, amma telefonlarını bağlayıb. Feysbukda da yoxdu. Yetən təbriklərini feysbukda yazır: oxusa, oxuyar, oxumaz da canı sağ olsun. Başqaları ki oxuyacaq! Oxuyanlardan biri də biz olduq. Natiq Məmmədlinin, tərif olmasın, şirin təbriki qarşımıza çıxdı. Belə yazıb:**

"Əzizim Qulu, səhər çağı məndə olan 2-3 nömrənə zəng elədim, zəng çatmadı. Bilirəm feysbukda da yoxsan. Heç neçə yaşın olur, onu da bilmirəm. Amma onu bilirəm ki, bizim sevdada olan adamların hamısı indi yaşyarımlıqdı, ürəyi bizim kimi döyünənlərin hamısının ad günü Şuşanın azad olunduğu gündən başlayır. Bilirsən nə arzu edirəm? Yayın qızmarında gəlim sənin Ağdamına, ordan gedək avtovağzala "ə, bu istidə qırıldıx-batdıx, Qalaya yer qalmadı"-, deyə qışqıran avtobuslara minib qalxaq bizim Qalamıza. Bax, bu şəkildəki kimi Qarabağ otelinin qabağındakı Güllü bağda oturub armudu istəkanda çay içək, "Ulduz"un təzə nömrəsinə baxaq, sən təzə şeirindən, mən təzə hekayəmdən danışım, araya salıb özümüzü təriflək, yetənə yetək, yetməyənə də bir daş ataq    Ad günün mübarək, həmişə mübarək dostum!".

Rəhbərlik tapşırıq verdi ki, sən bir cəhd elə. Bəlkə tapa bildin. Açığı, mobil nömrəsinə çəkinmədən zəng elədim. Bu əminliyi illər formalaşdırıb. Nə vaxt Qulu Ağsəsə zəng etsəm, həmişə telefon xətti üzümə açılıb. "Şərq"də işlədiyim uzun illər ərzində Qulu Ağsəsi itirdiyim, tapa bilmədiyim bir zaman olmayıb. Bu dəfə də zəngimə səs verdi. Çox sevindim, tezcə də "bu gün hamı sizi axtarır, deyirlər, tapılmırsız, telefonlarınız da bağlıdı..." Həmişəki sakit, həlim səsiylə (bu sakin, həlim danışığa görə, bəzən nə dediyini doğru-düzgün tuta bilmirəm, təkrar soruşuram. İndi yeridi - üzr istəyirəm buna görə Qulu müəllim - M.R.) "yox, telefonlarım bağlı deyil. Qəsdən də bağlamamışam. Bu saat kompüter arxasında "Ulduz"un aprel sayının son variantına baxıram ("Ulduz jurnalının baş redaktorudur M.R.), ona görə başım qarışıqdı. Telefon da yanımdadı. Bəlkə kimsə zəng edəndə eşitməmişəm, kənarda olmuşam..."

Arifə bir işarə bəsdi, məntiqindən çıxış edib:

**- Sizi çox yormayacam. Bildim, işiniz çoxdu. Bir-iki kəlməlik danışmaq istədim sizinlə. Bu gün doğum gününüzdü. Sizə xeyli təbriklər yazılıb, feysbukda...**

- Feysbukda yoxam. Bilmirəm.

**- Niyə çıxmısınız ki, feysbukdan? Çoxdan çıxmısınız?**

- Hə... 4-5 il olar. Məni yordu. Bəlkə də xam idim, hamını dostluğa qəbul etmişdim. Gördüm, mənlik deyil...

**- Qulu müəllim, doğum gününüzlə bağlı danışmaq istəyirdim...**

*(söhbəti başqa məcraya yönəltdi)*

- Doğum gününə qayıdarıq. Məni son günlər "qələbə söz-söhbəti" narahat edir. İttiham edirlər niyə Qələbə əsərləri yazılmır və sair... Hər kəsin öz yanaşma tərzi var. Azərbaycan ədəbiyyatını oxuyan, bu ədəbiyyatla az-çox tanış olan bilir ki, 28 illik işğal dövründə də Azərbaycan poeziyası əvvəlki qaydada yazıldı. Azərbaycan poeziyasında işğal motivli əsərlər yazılmadı. O vaxt da qınayırdılar ki, niyə belə yazırsınız, torpaqlar işğal altındadı, siz bunu göstərmirsiniz.  Çünki Qarabağ ədəbiyyatda heç vaxt işğal olunmadı. Biz heç vaxt Qarabağı işğal altında "qoymadıq". İşğala buraxmadıq Qarabağı. Hətta belə söz də vardı ki, Qarabağın işğalını "görmək" istəyirsinizsə, Qulunun qələmini əlindən alın. Ümumiyyətlə, heç vaxt - nə sovet işğalında, nə Çar Rusiyası dövründə Azərbaycan ədəbiyyatı işğala məruz qalmadı. Azərbaycan ədəbiyyatını işğal etmək ümumiyyətlə, heç kimə nəsib olmayıb. Nə vaxt bu ölkə ayağa qalxıbsa, öz dili, mədəniyyəti, ədəbiyyatı üzərində qalxıb. Bu mənada Azərbaycanın dili həm də Azərbaycan dilinə görə uzundur. Bu dil olmasaydı, gözüqırpıq olardıq. Bu dil qoruyub Azərbaycanı. Ona görə də işğalla heç vaxt barışmamışıq. Bunda da Azərbaycan poeziyasının, publisistikasının, Azərbaycan nəsrinin çox böyük rolu olub. 30 ilə yaxın ermənilər Qarabağda qaldı. Siz hansısa erməninin Qarabağı vəsf edən bir şeirinə, əsərinə rast gəldiniz?.. Yox. İnsan sevdiyini öyər, sevdiyini tərif edər, sevdiyindən küsər, inciyər də. Qarabağ nə vaxtsa onların olmayıb ki, onu ya sevsinlər, ya sevməsinlər.  İşğal etdikləri ərazilərə hansı münasibət bəslədikləri də məlumdur. İnsan Vətənini belə darmadağın edərmi? Qarabağ onların Vətəni deyildi, ona görə də ona vəhşicəsinə yanaşmışdılar. Amma bizim ədəbiyyatda, ədəbi düşüncədə Qarabağ daim vəsf edilib. Mən deyirəm ki, biz ATƏT-ə, BMT-yə elə yazdıqlarımızı göndərsək, bəsdi. Kimin-kim olduğu bilinəcək.

> "Amma yayda xəlvət gedəcəm, yəni komanda şəklində getmək, şəkil çəkdirmək, paylaşmaq mənlik deyil. İstəyirəm, tək olum - torpaq, bir də mən..."

*(Doğum gününədə ürəyi dolu idi Qulu Ağsəsin - M.R.)*

- ...Hardasa 10 il əvvəl Tiflisdə Qafqaz xalqlarının yaradıcılığından ibarət almanax nəşr olundu. Layihənin rəhbəri Londonda idi. O almanaxda mənim də şeirlərim çap olunmuşdu, Xankəndidə yaşayan bir erməninin də. Siyasi müstəvidə ikili standartlardan həmişə danışılıb, mən ədəbi nümunələr üzərində ikili standartları gördüm. Almanaxda çap olunacaq müəlliflərə demişdilər ki, tərcümeyi-halınızı yazıb göndərin. Mən də tərcümeyi-halımı doğulduğum yerlə başlamışdım: "Qarabağ mahalının Ağdam rayonu, Abdal-Gülablı kəndi" yazmışdım. O cümləni çıxarmışdılar tərcümeyi-halımdan, yazmışdılar ki, Bakıda yaşayır. Amma Xankəndidə yaşayan ermənin üçün  "Stepanakertdə yaşayır", qeyd etmişdilər.

**- Deməli istəyiblər ki, faktiki harada yaşayırsınız, oranı qeyd edin...**

- Hə də, guya. Onlar bilməmiş deyildilər, Qarabağın işğalını. Qəsdən çıxarmışdılar Qarabağın adını.

**- Almanaxdakı şeirlər arasında Qarabağa həsr olunanlar vardı?**

- Mən göndərmişdim, amma onları çap etməmişdilər. Başqa mövzularda 10-a yaxın şeirim tərcümə edilmişdi. Belə izah verirdilər ki, almanaxda siyasi motivli şeirlər olmayacaq. Qafqazda tək biz ermənilərlə yaşamırıq. Abxazlar, osetinlər, başqa xalqlar da yaşayır. Hamısının da deməli olar problemi var. Mənə təsir edən bu idi ki, doğulduğum yeri niyə tərcümeyi-halımdan çıxarırlar...

**- Qulu müəllim, deyirsiz, Azərbaycan ədəbiyyatı heç vaxt işğala məruz qalmayıb. Bir söz var, deyirlər, "əfvinizə sığınaraq", mən də əfvinizə sığınaraq soruşuram: bəs sovet illərində yaranan ədəbiyyat işğal olunmuş ədəbiyyat deyildi? Sovet hakimiyyətini, kommunist rejimini, partiyanı vəsf edən nə qədər əsərlər yazılıb...**

- Bundan tamamilə, 100 faiz qaçmaq mümkün deyildi. Qaçanların, qaçmağa çalışanların aqibəti "37"də necə oldu, bilirik. Amma ən sovetyanı əsərlərin özündə də Azərbaycan dilini qorumaq, Azərbaycan mənliyini, milli şüurunu, vətənpərvərliyi qorumaq cəhdi vardı və bunu da bacarırdılar. Bəzisi gizli, alt mənalı yazırdı, bəzisi bir qədər açıq. Bəxtiyar Vahabzadənin "Gülüstan" poeməsi necə yaranmışdı? Bütün dövrlərdə Azərbaycan ədəbiyyatı  Azərbaycanı tuta biləcəyi qədər ayaqda tutardu. 90-cı illərdə də artıq bu ayaqlanmanı gördük. Azərbaycan ədəbiyyatı heç vaxt işğala təslim olmayıb.

**- Yaxşı, ad günündə ürəyinizdən nələr keçir?**

- İnsanın arzuları bitmir ki...

*- Qulu müəllim, Ağdama getməmisiniz, deyəsən. (Bir az duruxdum, dedim, birdən getmiş olar, deyər, "necə getməmişəm? Sənin xəbərin olmayıb. Tələsik, başqa formada da soruşdum - M.R.)* **Yoxsa, getmisiniz?**

- Yox. Getməmişəm...

**- 2 il oldu...**

- ...Ürəyim gəlmir.

**- Niyə?..**

- ...Birdən mənə elə gəlir ki, ora getsəm öləcəm...

**- Nə danışırsız, niyə ki?..**

- Nə bilim, məndə belə hiss var... Kəndimizi gördüm... Kəndi yox e, xarabalıqları, dağıntıları... Heç nə qalmayıb, heç nə! Meşəlikdi... Orda insan yaşamayıb elə bil... Göndərəcəm sənə videoları...

**- Yenə də, bu gün doğum gününüzdü, əhvalınızı belə korlamayın.  İnşallah, hər şey düzələr. Hər halda ürəyinizdən nələrsə keçir bu gün, arzular, istəklər...**

- Ürəyimdən keçən budu ki, dünyamızda sülh olsun. İşğal, müharibə olmasın. İnsanlar əzab çəkməsin. Dünyanın harasında, fərqi yoxdu. İnsanlar xoşbəxt yaşasın. Bu, çıxış üçün, pafosla deyilən sözlər deyil. Biz müharibəni, işğalı yaşamışıq, nə olduğunu bilirik. Adamlar bacardıqları qədər öz işləriylə məşğul olsunlar. Başqalarının həyatına müdaxilə etməsinlər. Onda hər şey gözəl olacaq, problem də olmayacaq.

**- Amma ürəyinizdən həm də Ağdama getmək keçir, dilə gətirməsəniz də.**

- Əlbəttə, keçir. İnşəllah, yayda gedəcəyəm. Amma xəlvət getmək istəyirəm.

**- Necə xəlvət? Heç kim bilməsin?**

- Yəni komanda şəklində getmək, şəkil çəkdirmək, paylaşmaq mənlik deyil. İstəyirəm, tək olum - torpaq, bir də mən...

**Söhbətləşdi: Məlahət Rzayeva**

**P.S.** *Qarabağ şairi, Əməkdar jurnalist, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsi dünyaya gəlməsinin 53-cü ili münasibətiylə təbrik edirik: "İstəklərimiz çin olsun, Qulu müəllim. Təkcə gəzəsiniz Abdal-Gülablıda. Amma Bakıya qayıdın yenə...".*

**Məlahət Rzayeva**

# 869 milyon manat pul silinib

## Hesablama Palatası bununla bağlı təşkilatların, qurumların qarşısında şərt qoyub, bu vəsait büdcəyə bərpa olunmalıdır

**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində Hesablama Palatasının 2021-ci il üzrə hesabatı müzakirəyə çıxarılıb. Hesabatı Hesablama Palatasının sədri Vüqar Gülməmmədov təqdim edib. İclasda parlamentdə təmsil olunan siyasi partiyaların nümayəndələri və QHT rəhbərləri də iştirak ediblər.**

V.Gülməmmədov deyib ki, 2021-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Qarabağ zəfərini siyasi-diplomatik müstəvidə daha da möhkəmləndirib. Sədr bildirib ki, təqdim edilən hesabat 2021-ci ildə planlaşdırılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə vurğulayıb ki, 2021-ci ildə Azərbaycanda COVID-19-la mübarizə çərçivəsində vergi ödəyicilərinə 800,9 milyon manat vəsait xərclənib: "46 nəzarət tədbirinin həyata keçirilməsi planlaşmanın tam olaraq həyata keçirilməsinə nail olunduğunu deməyə əsas verir. Bütövlükdə Hesablama Palatasının ötən ildə daha çox səmərəlilik auditinə üstünlük verməsi müsbət hal kimi dəyərləndirilir".



### "35,7 milyon manatın 86 faizi bərpa olunub"

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, 869 milyon manatlıq vəsait aktivlərin tanınması üçün xərclənib. Yoxlamalar zamanı isə məlum olub ki, həmin aktivlər tanınmayıb, sadəcə, pul silinib. Sədr bildirib ki, bununla bağlı təşkilatların, qurumların qarşısında şərt qoyublar: "Bu vəsait büdcəyə bərpa olunmalıdır. Çünki vəsait dövlət büdcəsindən ayrılıb ki, müəyyən iş həyata keçirilsin". Qeyd olunub ki, ümumilikdə 2021-ci ildə aparılmış nəzarət tədbirləri nəticəsində aşkar edilmiş maliyyə pozuntularının həcmi 80 milyon manat olub. Kollegiya qərarlarına əsasən, pul və natura ifadəsində cəmi 35,7 milyon manat məbləğində vəsaitin bərpası ilə bağlı birbaşa tədbirlər müəyyən edilib. 35,7 milyon manatın 86 faizi bərpa olunub. Bərpası mümkün hesab edilməyən məbləğin böyük hissəsi əsasən, elm, təhsil, səhiyyə və mədəniyyət sahələrində fəaliyyət göstərən qurumlar üzrə formalaşıb.

### "Bəzi obyektlərdə daxili nəzarətin təşkili üzrə hüquqi aktlar yoxdur"

Hesablama Palatasının sədri bəyan edib ki, maliyyə auditinin nəticələrinə əsasən mühasibat yazılışlarının düzgün verilməməsi halları aşkar olunub. O bildirib ki, 600 min manat maliyyə auditi nəticəsində bərpa edilib: "2021-ci ilin uyğunluq auditləri bir sıra müsbət meyillərin müşahidə edildiyini, bəzi halların isə dəyişmədiyini göstərir. Dövlət vəsaitlərinin nəticələrinin qiymətləndirilməsində maneələr var. Bəzi obyektlərdə daxili nəzarətin təşkili üzrə hüquqi aktlar yoxdur. Ümumilikdə uyğunluq auditi nəticəsində 34,2 milyon manatın bərpası ilə bağlı tədbirlər müəyyən edilib. Verilən tövsiyələr və fiskal göstəricilərin yerinə yetirilməsi aşağı səviyyədə olur. Ötən illərdə olduğu kimi, hesabat ilində də aşkarlanan pozuntularla bağlı 8 tövsiyə hazırlanaraq Milli Məclisə və Nazirlər Kabinetinə təqdim olunub".

### "Sistemdə qeydiyyatdan keçmədən əmək müqavilələri bağlanıb"

Vüqar Gülməmmədov deyib ki, hesabat ilində Dünya Bankı tərəfindən ali audit orqanlarının müstəqillik indeksi qiymətləndirilib. O bildirib ki, Azərbaycan Hesablama Palatasının müstəqilliyini yüksək qiymətləndirilib: "Strateji planın 2021-ci il üzrə qiymətləndirilməsi zamanı müvafiq dövlət orqanlarının məlumatlarının rəqəmsallaşdırılmasında ciddi axsamalar mövcuddur. Kənar Dövlət Maliyyə Nəzarəti tədbirləri zamanı dövlət qulluğu ilə müəyyən edilmiş normaların bəzi dövlət qurumlarında ciddi şəkildə pozulduğu aşkarlanıb. Əmək münasibətlərinə dair informasiya sistemində qeydiyyatdan keçmədən əmək müqavilələri bağlanıb".

### "Turizm Agentliyinə 862 min manat ziyan ödətdirilib"

Hesablama Palatası Dövlət Turizm Agentliyinə ayrılmış dövlət vəsaitlərinin icrası üzrə uyğunluq auditinin nəticələrini açıqlayıb. Vurğulanıb ki, aparılmış araşdırma nəticəsində Agentliklə bağlı cinayət işi başlanılıb. İstintaqın gedişində 862 min manat vurulmuş ziyan ödənilməsi təmin olunub.

### MSK-da işə qəbulda qanunsuzluq aşkarlanıb

Hesabata əsasən, Mərkəzi Seçki Komissiyasında da yoxlama aparılıb. MSK-da 50 nəfər işçi dövlət qulluğunun inzibati vəzifələrinə birbaşa təyin edilməklə dövlət qulluqçusu kimi işə qəbul olunub. Onlara əməkhaqqı ilə yanaşı dövlət qulluqçuları üçün nəzərdə tutulmuş əlavələr ödənilib. Bundan əlavə, əmək müqavilələri barədə məlumatların müvafiq olaraq elektron informasiya sistemində qeydiyyata alınması üçün təqdim edilmədiyi halda 877 nəfər işə qəbul olunub.

### Kənd təsərrüfatına ayrılan subsidiyaların auditi aparılacaq

Hesablama Palatasının sədri bildirib ki, son dövrlər büdcənin icrası ilə bağlı nəzarət tədbirləri ilə bağlı müzakirələr aparılır. O bildirib ki, dövlətin büdcəsinin layihəsinə və icrasına rəy vermək parlamentin əsas funksiyasıdır: "Bu funksiyanın həyata keçirilməsinə Hesablama Palatası töhfə verməyə hazırdır. Hesabatda uyğunluq auditinin çox olmasının səbəbi dövlət büdcəsinə bərpa ilə bağlıdır. Səmərəlilik auditində bərpa olmur və qarşıya qoyulan məqsədlərə nail olunmur. Parlamentin dövlət büdcəsində, digər büdcə layihələrində iştirakı, rolu bizim nəzarət tədbirlərimizlə bağlıdır. Parlamentin rolu nə qədərdirsə, palatanın da rolu o qədərdir. Kənd təsərrüfatına ayrılan subsidiyaların auditi də həyata keçiriləcək. Bu, artıq gələn aydan planlaşdırılır".

Müzakirələrdən sonra hesabat parlamentin plenar iclasına tövsiyə edilib.

**İsmayıl Qocayev**



# Şuşa ruhu, milli kimliyi olan şəhərdir

## Onun adından istifadənin xüsusi qanunla tənzimlənməsi zəruri idi

**Şuşa şəhərinin adından istifadə edilməsi qaydası müəyyənləşir. Bununla bağlı "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna dəyişiklik təklif edilir.**

Dəyişikliyə əsasən, qanunlar və müvafiq qurumlar tərəfindən müəyyən edilən hallar istisna olmaqla, "Şuşa" sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir. Yəni bundan sonra media subyektlərinin, mükafat və təltiflərin, o cümlədən idman və digər yarışların, festivalların, sərgilərin adlarında "Şuşa" adından özbaşına istifadə mümkün olmayacaq. Həmçinin, kommersiya və reklam məqsədilə də "Şuşa" sözünün icazəsiz tətbiqi qadağan olunur.

**Qanuna nəzərdə tutulan dəyişikliklə bağlı "Şərq"ə danışan millət vəkili, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu deyib ki, Şuşa şəhərinin adından istifadə qaydalarının müəyyənləşməsi Azərbaycanın mədəni və mənəvi paytaxtı olan Şuşa şəhərinin ad xaosundan, sui-istifadə hallarından qorunması üçün çox vacibdir.** Deputatın sözlərinə görə, bu dəyişikliklə xalqımızın yaddaşında milli sərvətimiz kimi assosiasiya olunan Şuşa adının şəxsi mənfəət, kommersiya marağı, yaxud informasiya manipulyasiyası qismində istismarı mümkün olmayacaq: "Qanun buna yol verməyəcək. Xüsusi coğrafi mövqedə yerləşən Şuşa şəhərinin xüsusi döyüş taktikası ilə qəhrəmancasına işğaldan azad edilməsi həm Azərbaycan, həm də dünya hərb tarixində bənzəri olmayan hadisədir. Şuşanı qəhrəman Azərbaycan əsgəri heç bir ağır silah işlətmədən, əlbəyaxa döyüşlə azad edib. Çünki Ali Baş Komandanın məqsədi doğma və əziz şəhərimizi dağıntıya məruz buraxmadan azad etmək idi. Şuşa ruhu, milli kimliyi olan bir şəhərdir. Ona görə də Prezident İlham Əliyev bu şəhərə bir "səxs" kimi xitab edərək, "Əziz Şuşa sən azadsan", "Əziz Şuşa, biz səni dirçəldəcəyik" deyirdi. Bütün bunlar Şuşa adının müqəddəsliyini göstərməklə yanaşı, onun adından istifadənin xüsusi qanunla tənzimlənməsini zəruri edir".

**İsmayıl Qocayev**

# Uşaqlara alça və çiyələk verməyin!

## Reyhan Bayramova: "İnsanlar hər meyvəni öz yetişdiyi dövrdə qəbul etsələr daha yaxşı olar"




**Pediatr Vaqif Qarayev hazırda satışda olan alça və çiyələyin uşaqlara verilməməsi ilə bağlı valideynlərə xəbərdarlıq edib. Bu barədə özünün şəxsi feysbuk hesabında post paylaşan pediatr yazıb ki, uşaqlarda mədə-bağırsaq pozğunluğu yaradır. Bu cür şikayətlərin çoxaldığına diqqət çəkən V. Qarayev hesab edir ki, tərkibinə kimyəvi maddələr vurulan bu meyvələri körpələrə verməsək yaxşıdı.**

**Pediatr Reyhan Bayramova isə "Şərq"ə açıqlamasında mövsümündə yeyilən çiyələk və alçanın uşaq orqanizminə heç bir ziyanı olmadığını deyib.**

Onun sözlərinə görə, mövsümündən əvvəl satışa çıxarılan meyvələr təbii yolla yetişdirilmir. Onların tərkibinə istixana şəraitində müxtəlif kimyəvi maddələr vurulur. Alça və çiyələk vaxtında yetişdiyi zaman uşaqların inkişafı üçün çox faydalıdır:"Əslində bu təkcə alça və çiyələyə yox, bütün meyvə və tərəvəzlərə aiddir. İnsanların əksəriyyəti meyvənin kimyəvi tərkibinə fikir vermir. Çox az adam meyvənin kimyəvi tərkibini öyrənir, onun hansı vitaminlər və elementlərlə zəngin olmasını araşdırır. Digər insanlar isə meyvələri dad xüsusiyyətlərinə görə qəbul edirlər. Alça və çiyələk bizim sevdiyimiz və öyrəşdiyimiz meyvələrdəndir. Dad xüsusiyyəti insanların xoşuna gəlir, ona görə də bu meyvələri qəbul edənlər çoxdur. Digər meyvələr kimi alça və çiyələyin də insan orqanizmi üçün faydaları çoxdur. Amma onların da qəbul olunma qaydaları var. Meyvə-tərəvəz qəbulu xüsusilə yay fəslində faydalıdır. Ümumiyyətlə, insanlar hər meyvəni öz yetişdiyi dövrdə qəbul etsələr daha yaxşı olar. Süni və vaxtından öncə yetişmiş meyvələrin qəbuluna meyl göstərmək lazım deyil. Ökəmizdə alça yetişir, yəni genetik modifikasiya olunmuş meyvə deyil. Bu baxımdan onun qəbulu ancaq faydalıdır".

**Pediatrın sözlərinə sözlərinə görə, C vitamini qaynağı olan çiyələk həm də orqanizmi toksinlərdən qoruyur, diş ətlərini də gücləndirir:** " Uşaqlara çiyələk vermək məsələsinə gəldikdə isə ehtiyatlı olmaqda fayda var. Adətən çiyələk allergik məhsul kimi təqdim edilir və bu səbəbdən uşaqlara verilməsinə ehtiyatla yanaşılır. Ən çox da allergiyaya meylli uşaqlara çiyələk tövsiyə olunmur.

Bağırsaqda, mədədə reaksiya, öskürəyin tətiklənməsi, dəri problemlərinin alovlanmasına rəvac verə bilər".

**Şəymən**

# Son yeddi ayda ən yüksək qiymət artımı müşahidə olunur

## Çıxış yolu var, məhsulları idxal edən şirkətlərə xüsusi vergi və gömrük güzəştləri olmalıdır

**Son üç ayda Azərbaycanda inflyasiyanın 18 faizə yüksəldiyi müşahidə olunur. Əlbəttə, bu rəqəm çox yüksəkdir. Amma bunun obyektiv səbəbləri də olmamış deyil. Çünki bu göstəricinin bir hissəsi dünyada ərzaq və digər məhsulların qiymətinin artması ilə bağlı olaraq idaxal edilmiş inflyasiyaya əsaslanır.**

Maraqlıdır, inflyasiyanın ikirəqəmli olması əhalinin sosial güzaranına necə təsir göstərəcək?

Sualımızı cavablandıran iqtiadçı-ekspert Elmir Səfərli "Şərq"ə bildirib ki, bu proses tək bizim ölkədə yaşanmır:

"Ümumiyyətlə, pandemiya sonrası dünya ölkələrində inflyasiya həddinin yüksəlməsi Azərbaycandan da yan keçməyib. Son üç ayda ərzaq qiymətlərində baş verən bahalaşmalar, xüsusən də istehlak səbətinə daxil olan məhsulların qiymətindəki artımlar inflyasiya həddinin gözləniləndən çox olmasına səbəb oldu.



*"Həmçinin dövlət tərəfindən xüsusi bir güzəşt paketi hazırlanmalı və sahibkarlara təqdim edilməlidir"*

Azərbaycan bir çox məhsulları idxal edən ölkədir. Bu kontekstdə ərzaq və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir.

Hazırda dünya səviyyəsində qlobal ərzaq məhsulları ticarətində son yeddi ilin ən yüksək qiymət artımı müşahidə olunur. Hətta bunu BMT-nin Qida və Kənd Təsərrüfatı Təşkilatı öz hesabatında qeyd edib. Bu baxımdan idxala bağlı olan ölkələr, ixracatçı dövlətlərdə yaşanan qiymət artımından mütləq təsirlənəcək. Bu prizmadan yanaşsaq, Azərbaycanda ərzaq məhsullarının dəyərinin son yeddi ayda durmadan artmağını idxal qiymətləri ilə əlaqələndirə bilərik".

E.Səfərli onu da bildirib ki, son iki ildə dünyada tüğyan edən pandemiyadan asılı olaraq ərzaq məhsullarının ümumi istehsalında azalma müşahidə olunmaqdadır:

"Bu isə öz növbəsində məhsulun qiymətinə təsir göstərir. Təbii ki, bu qiymət artımlarının qarşısının alınması üçün xüsusi anti-inflyasiya tədbirləri həyata keçirilir. Hətta bu yaxınlarda Nazirlər Kabineti tərəfindən kredit və faizlərin subsidiyalaşdırılması ilə bağlı müəyyən qərarlar imzalandı.

Digər tərəfdən müəyyən məhsulların istehsalçılarına daxili istehsalın təşviqi ilə bağlı müəyyən güzəştlər tətbiq olunur. Düşünürəm ki, mözcud vəziyyətlə bağlı bəzi addımlar da atıla bilər. Məsələn, məhsulları idxal edən şirkətlərə xüsusi vergi və gömrük güzəştləri olmalıdır. Həmçinin dövlət tərəfindən xüsusi bir güzəşt paketi hazırlanmalı və sahibkarlara təqdim edilməlidir".

**Kənan Eynuroğlu**

# Qırğızıstan önəmli bir türk respublikasıdır

## Bu ölkə ilə əməkdaşlıq eyni zamanda Türk Dövlətləri Təşkilatının da güclənməsinə yönəlik mühüm addımdır



**Aprelin 20-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə ölkəmizdə səfərdə olan Qırğızıstan Prezidenti Sadır Japarov arasında geniş tərkibli görüş keçilib.**

Daha sonra liderlərin iştirakı ilə Azərbaycan-Qırğızıstan arasında mühüm sənədlərin imzalanması mərasimi olub. İki ölkə arasında "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ayrıca 9 önəmli sənəd imzalanıb.

**Qırğızıstan-Azərbaycan əlaqələri barədə "Şərq"ə danışan türkoloq-alim, siyasi şərhçi Faiq Ələkbərli Bişkek-Bakı əməkdaşlığının genişlənməsinin olduqca müsbət və əhəmiyyətli olduğunu deyib. Analitik bildirib ki, iki türk dövlətinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq etməsi eyni zamanda Türk Dövlətləri Təşkilatının da güclənməsinə yönəlik mühüm addımdır:** "İkili əlaqələr ümumilikdə türk dünyasının möhkəmlənməsinə töhfə verir. Qırğızıstan Orta Asiyanın önəmli türk respublikalarından biridir və bölgədə strateji mövqeyə malikdir. O baxımdan iki ölkə arasında "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamənin və digər sənədlərin imzalanması təqdirəlayiqdir. Türk dövlətlərinin bir-biri ilə sıx münasibət qurması sadəcə regional deyil, qlobal miqyasda yeni güc mərkəzinin meydana çıxması fonunda da önəmlidir. Türk ölkələrinin yeni mərhələyə qədəm qoyması üçün belə həlledici addımlar atılmalıdır. İki dövlət arasında imzalanmış sazişlərin müsbət nəticələr verəcəyinə inanırıq".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi**

# Ermənistan Azərbaycan təbiətinə qarşı ekoloji terror törədib

## İşğaldan azad edilmiş ərazilərdə ətraf mühitə vurulan zərər və ziyan qiymətləndirilir

**İşğaldan azad edilmiş ərazilərdəki çaylarda transsərhəd çirklənmənin onlayn şəkildə müəyyən edilməsi məqsədilə keyfiyyət sensorları ilə təchiz olunmuş avtomat hidroloji stansiyaların quraşdırılması prosesi davam edir və cari ilin II rübündə işlər tamamlanacaq. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva Zəngilana təşkil olunan səfər zamanı bildirib.**

Xidmət rəisi qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə 11 avtomat hidroloji stansiyadan 4-ü Ermənistanla sərhəddən 10.01 kilometr məsafədə Şayıflı kəndi ərazisində Oxçuçay, 2.65 kilometr məsafədə Zəngilan rayonunun Rəzdərə kəndi ərazisində Bəsitçay və 6.5 kilometr məsafədə Qubadlı rayonunun Əliquluuşağı kəndi ərazisində Bərgüşad çayları, o cümlədən 6.2 kilometr məsafədə Ağbənd qəsəbəsində Araz çayı üzərində quraşdırılır. Çayların çirklənməsi bundan sonra onlayn qaydada izləniləcək. Bəsitçay, Oxçuçay, Bərgüşad və Araz çaylarında quraşdırılacaq avtomat hidrometeoroloji stansiyalar keyfiyyət sensorları ilə təchiz ediləcək, çirklənmə barədə ilkin məlumatların əldə edilməsinə şərait yaradacaq. U.Tağıyeva bildirib ki, stansiyalarda suyun temperaturunun və su sərflərinin avtomat rejimdə ölçülməsi çirklənmənin mənşəyinin təyinində və çirklənmə yükünün hesablanmasında mühüm rol oynayacaq: "Əvvəllər hidroloji və suyun keyfiyyətinə dair monitorinq müəyyən edilmiş vaxtlarda aparılırdı, bu isə yalnız ölçmə zamanı su obyektlərinin hidrokimyəvi vəziyyətini qiymətləndirməyə imkan verirdi. Lakin ölçmə müddətləri arasında hər hansı bir fövqəl və qısamüddətli çirklənmə baş verərkən onu qeyd etmək mümkün olmurdu. Quraşdırılacaq avtomat stansiyalar isə istənilən anda həm çayların hidroloji rejimini, həm də suyun keyfiyyətindəki dəyişiklikləri fasiləsiz olaraq izləmək və vaxtlı-vaxtında lazımi tədbirlər görmək imkanı verəcək. İstər beynəlxalq qurumlar, istərsə də Azərbaycanın istənilən yerli qurumu həmin stansiyalar vasitəsilə çayın çirklənmə səviyyəsi barədə onlayn məlumat ala biləcəklər". Xidmət rəisi bildirib ki, işğaldan azad edilmiş ərazilərdə yerləşən su obyektlərində suyun keyfiyyətini müəyyənləşdirmək məqsədilə 2020-ci il dekabrın 25-dən başlayaraq mütəmadi monitorinqlər aparılır. Analiz üçün su və dib çöküntüsü nümunələri götürülür. Çayda ən çox çirklənmə halları yanvar-mart və iyun-avqust ayları, əsasən az sulu dövrlərdə müəyyən edilib. Oxçuçayda çirkləndirici maddələrin yüksək qatılıqları əsasən yuxarı axında Ermənistanla sərhədə yaxın seçilmiş nöqtədə müəyyən edilib. Çayın çirklənməsinə səbəb Ermənistan ərazisində fəaliyyət göstərən Qafan və Qacaran mis- molibden kombinatlarından atılan tullantı sularıdır.

Xatırladaq ki, Oxçuçayla bağlı vəziyyətə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də toxunub: "Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay, Oxçuçay. Bütün bu çayları ermənilər işğal etmişdilər, vəhşicəsinə istismar edirdilər. Oxçuçay çayının fəlakəti indi dünyanın gözü qabağındadır. Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz ermənilərin törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq? Biz heç nəyi unutmamışıq və unutmayacağıq".



**Azərbaycan Turizm və Menecment Universitetinin İctimai fənlər kafedrasının professoru Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında Ermənistanın 28 ilə yaxın müddətdə işğal altına saxladığı torpaqlarımızda təbii sərvətlərə vurduğu ziyanın ödənməli olduğunu dedi. Professor qeyd etdi ki, hansı xarici şirkət işğalçı Ermənistan dövləti ilə işbirliyində olub, Azərbaycanın təbii sərvətlərinin talanması, ekoloji terrora məruz qoyulmasında iştirak edibsə, onlar da cavabdehlik daşımalıdır:**

***Təbiətə, ətraf mühitə, su ehtiyatlarına, çaylara zərər vuranlar mütləq şəkildə məsuliyyətə cəlb olunacaqlar, törətdikləri əmələ görə də cavab verəcəklər***

- Məlumdur ki, işğal müddətində təbii sərvətlərimiz talan edildi, maddi-mədəniyyət abidələrimiz dağıdıldı. Cinayətkar Ermənistan dövləti və Qarabağdakı separatçılar xalqımıza qarşı soyqırım həyata keçirərək, təkcə insanları məhv etmədi, həm də təbiətə divan tutdular, maddi-mədəniyyət abidələrini dağıtmaqla tariximizi silməyə çalışdılar. Ermənistan tərəfdən çaylarımıza kimyəvi tullantıların, zəhərli maddələrin axıdılması bizə məlum idi. Amma işğal müddətində bununla bağlı mənbədə monitorinq aparmaq mümkün deyildi. Artıq torpaqlarımız işğaldan azad edilib və çayların, ekologiyanın çirklənməsi ilə bağlı dəqiq araşdırmalar aparmaq mümkündür. Adı çəkilən ərazilərdə, çayların üzərində quraşdırılan avtomat hidrometeoroloji stansiyalar buna imkan verəcək. Amma əsas məsələ ekologiyamıza zərbə vuranların məsuliyyətə cəlb edilməsidir. Hansı şirkətlər ki, cinayətkar Ermənistan dövləti ilə əlbir olaraq bu prosesdə iştirak edib, haram qazanc əldə ediblər, o şirkətlər də zəhmət çəksinlər zərəri qarşılasınlar. Bunun üçün həmin şirkətlər barəsində hüquqi müstəvidə lazımi işlər görülməlidir, beynəlxalq təşkilatlara bildirilməlidir. Ermənistan və onunla əməkdaşlıq edənlər təbiətimizə qarşı ekoloji terror törədib. Bunun cavabını da verməlidirlər.

"İşğaldan azad edilmiş ərazilərdə ətraf mühitə vurulan zərər və ziyan qiymətləndirilir, hər bir fakt sənədləşdirilir. Azad olunan ərazilərdə işğal müddətində qanunsuz fəaliyyətlə məşğul olan, təbiətə, ətraf mühitə, su ehtiyatlarına, çaylara zərər vuranlar mütləq şəkildə məsuliyyətə cəlb olunacaqlar, törətdikləri əmələ görə də cavab verəcəklər".

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Ən yaxşı siyasət mədəni siyasətdir"

## Şahbaz Xuduoğlu: "Azərbaycanla Fransa arasında xüsusi gərginliyin olduğunu hesab etmirəm"

**Birinci və İkinci Qarabağ müharibəsi dövründə Fransa Azərbaycanın ərazi bütövlüyünə biganə yanaşıb, hətta Ermənistanın işğalçı siyasətinə "haqq qazandırıb".**



Separatçını müdafiə edib. Fransız diplomatların 30 il erməni işğalında qalan ərazilərimizə qanunsuz səfərləri zaman-zaman gündəm mövzusu olub. Fransa 30 illik dönəmdə Azərbaycana qarşı siyasi qərəz nümayiş etdirib. Əlbəttə, bu qərəz, ikili standartlar illər boyu dərin qatlara işləyib. Amma olduqca faydalı və bəşəri əhəmiyyətə malik işlər görən elə vətəndaşlarımız var ki, bu qərəz "dağ"ını yara bilirlər.

Məsələn, "Qanun" Nəşriyyat Evinin təsisçisi və direktoru Şahbaz Xuduoğlunu etalon kimi göstərə bilərik. O, Fransanın ən nüfuzlu mükafatlarından birinə layiq görülüb. Şahbaz Xuduoğlu Fransanın Mədəniyyət naziri Roselyne Bachelot tərəfindən "İncəsənət və Ədəbiyyat" ordeninin "Cəngavər" dərəcəsi ilə təltif edilib. Orden Ş.Xuduoğluna ədəbiyyat sahəsində Fransa-Azərbaycan əlaqələrinin inkişafı, kitabların və əsərlərin nəşrindəki fəaliyyəti, Azərbaycan qanunun aliliyinin möhkəmləndirilməsinə kömək üçün əsasən Avropa (və xüsusən də fransız) hüquqi mətnlərini tanıtmaq səyləri nəzərə alınaraq verilib.

**Əməyi qiymətləndirilən Ş.Xuduoğlu "Şərq"ə açıqlamasında deyib ki, mükafatın verilməsi Fransa-Azərbaycan əlaqələrinə dair məsələlərlə bağlı deyil:**

"Siyasətlə mədəniyyət fərqlənir. Əslində ən yaxşı siyasət mədəni siyasətdir. Azərbaycanla Fransa arasında xüsusi gərginliyin olduğunu hesab etmirəm. Fransanın ölkəmizdə universiteti var. Hətta döyüşlər üçün "gecəgörmə" cihazı Fransadan satın alınıb. Hərbi sənayedə də müəyyən əlaqələr mövcuddur. Fransız ədəbiyyatının Azərbaycanda yayılması, oxunması, mədəniyyətlərinin təbliği istiqamətində gördüyüm işə münasibətdir. Peşəkar fəaliyyətimə verilən qiymət olduğundan mənim üçün dəyərlidir".

**Aygün Tahir**



**"Tərtər işi" ilə bağlı cinayət işinin istintaqı zamanı üzə çıxan yeni detallarla əlaqədar həbs olunanlar arasında ən yüksək rütbəli şəxs Niftəliyev Rəşid Ağaşərif oğludur. Məlumata görə, rütbəsi polkovnik-leytenant olan Rəşid Niftəliyev N saylı hərbi hissənin komandiri olub. O, daha öncə Qərargah rəisi vəzifəsində də çalışıb.**

R.Niftəliyev 2019-cu ildə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

Bundan əlavə, Baş Prokurorluğun yaydığı rəsmi məlumata görə, R.Niftəliyevin də istintaq zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi,

# "Əmr verən kimsə olub, onu tapmaq lazımdır"

## Kamil Musəvi: "Əsl səbəbkarlar tapılanda bu işə son qoyulacaq"

onları qanunsuz azadlıqdan məhrum etməsi və vəzifə səlahiyyətlərini aşmasına əsaslı şübhələr müəyyən edilib. O, Cinayət Məcəlləsinin 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.2 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma), 341.2.3 və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində həbs-qətimkan tədbiri seçilib.

**Mövcud prosesə bağlı "Şərq"ə açıqlama verən Qarabağ qazisi Kamil Musəvi bu işin əsl səbəbkarlarının tapılmasının vacibliyindən bəhs edib:**

"Tərtər işi" ilə bağlı istintaqın yenidən başladılması müsbət addımdır. Xalqa qaranlıq qalan, insanların övladlarının haqsız yerə öldürüldüyünü əks etdirən mühümmalı bir mövzudur. Həbs edilənlərin kimliyi haqqında məlumat oxudum. Yoldaşların hər biri hadisə zamanı işgəncə verən tərəf kimi müəyyən ediliblər. Əvvəlcə hərbçi kimi analiz etdim ki, onların içərisində tanıdıqlarım da var. Hərəsi bir yerdə xidmət edir. Məsələn, 1-ci Ordu Korpusunda fəaliyyət göstəriblər. Amma fərqli briqadalarda yerləşdirilər. Bu briqadalardan Mingəçevirə gəlib öz başlarına işgəncə veriblər? Əmr verən kimsə olub, onu tapmaq lazımdır. Niyə əmr verdiyini bilməliyik. Həmin dönəmdə ümumi proses formasında şişirtdilər ki, ordumuzda düşmənə xidmət göstərən casuslar var. Təbii ki, bunu da araşdıran hər hansı hərbçi deyil. Dövlət Təhlükəsizliyi Xidməti bu səlahiyyəti daşıyır. "Tərtər hadisələri" zamanı bu qurum açıqlama verdi ki, casuslar var".

**Qarabağ qazisi vurğulayıb ki, hərbçilərin əmrə tabe olaraq kimisə döyməsi normaldır:**

"İnanıram ki, hansı Azərbaycan oğlunun qarşısına kimisə ərməninin xeyrinə işlədiyini deyərək çıxartsaydılar, onu döyər, söyər və ya işgəncə verərdilər. Çünki hərbçilərin çoxu vətənpərvərdir, xəyanəti bağışlamırlar. Kim olsaydı, bu addımı atardı. Amma onlara bu komandanı kim verib, o tapılmalıdır. İstintaqa cəlb edilənlərin vəzifəsi maxe, gizir və s. olub.

Onlar əmrə riayət ediblər. Təbii ki, hərbçilər də həmin an bunu araşdıra bilməzlər. Ölkə səviyyəsində bu proses yüksək səviyyədə işləyir. Təsdiq etdilər ki, ordu daxilində düşmənə xidmət edənlər var. Bəraət alanlar oldu, günahsız yerə öldürüldüyü sübut edilənlər oldu. Deməli, həmin hadisə xəyanət yönümlüdür.

Əsl səbəbkarlar tapılanda bu işə son qoyulacaq. Hesab edirəm ki, başımıza nə gəlibsə, hamısının altında Rusiyanın "əli" var. Bu hadisəni də kiçik soyqırım kimi qəbul etmək olar. Araşdırılsa, "Rusiya amili" özünü büruzə verər".

**Cəmilə**

# Yaratmaqla iş bitmir

## Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinə şagird qarşısına çıxmayan bir şəxs rəhbərlik edə bilməz



**Təhsil Nazirliyində struktur dəyişikliyi edilib. Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsi nəzdində Məktəbəqədər təhsilin təşkili və idarəolunması sektoru yaradılıb. Bundan əlavə ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin adı isə dəyişdirilərək Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsi edilib.**

Uşaqların fərdi inkişafı və sosiallaşmasında bağçaların əhəmiyyətini xüsusi vurğulayan ekspertlərə görə, məktəbəqədər təhsil müəssisələri həmçinin körpələrin təlim tərbiyəsində də mühüm rol oynayır.

Bu səbəbdən də onlar bağçaların inkişafına, təlim-tərbiyə işlərinin daha da yüksəldilməsini vacib hal kimi dəyərləndiriblər. Eyni zamanda dövlət məktəbəqədər təhsil müəssisələrinin Təhsil Nazirliyinin tabeliyinə verilməsindən sonra sözügedən müəssisələrdə təlim-tərbiyə və məktəblərə hazırlıq prosesinin uyğun səviyyədə təşkil olunacağına ümid edirlər.

*"Ümumi Təhsil haqqında" qanuna uyğun olaraq ümumi təhsil məktəbəhazırlıq mərhələsindən, ibtidai, ümumi orta, tam orta təhsil səviyyələrindən ibarətdir. Ümumi təhsilin idarə olunması şöbəsinə rəhbərlik edən şəxs ümumi təhsildən genis anlayışı olmalıdır".*

**Bu sözləri təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında deyib.**

Bu şöbənin digərlərindən fərqlənməli olduğunu xüsusi vurğulayan ekspert hesab edir ki, ən azından bu şöbəyə rəhbərlik edəcək şəxsin ümumi təhsil sahəsində təcrübəsi olmalıdır: "Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsində işləyən şəxslərin neçəsi ümumi təhsildə işləyib, neçəsi orta məktəbdə heç olmasa jurnal yazıb? Gülünc vəziyyətdir, orta məktəbdə şagird qarşısına çıxmayan bir şəxs ümumi təhsil şöbəsində necə fayda verə bilər? Məktəbəqədər təhsilin təşkili və idarəolunması sektorunun yaradılması təqdirəlayiq haldır. Bu, sahəyə xüsusi diqqət olacağından xəbər verir. Ancaq xaricdə təhsil alıb deyə hansısa bir şəxs, bu sahədə anlayışı olmayan bir şəxs bu sektora rəhbərlik edəcəksə, yaradılmağının da bir faydası olmayacaq. Yaratmaqla iş bitmir, sonrakı proseslər, bu sektorun bu sahəyə necə inkişaf verəcəyini görmədən heç bir şey demək doğru olmaz".

**Şəymən**

# Ukrayna müharibəsi hələ bitməyib

## Tikinti materiallarının qiymətinin sabitləşməsi aldadıcıdır



**Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı tikinti materialları bazarında qiymətlərin sabitləşdiyini bildirib. O qeyd edib ki, tikinti materialları bazarında Ukrayna-Rusiya arasında yaşanan müharibəyə görə, qiymət artımları baş verib: "Müharibə ölkəmizdə tikinti materialları bazarındakı qiymətlərə də təsir edib. Ölkəmizə tikinti materialları əsasən, Kiyev və Kremldən idxal olunur.**

Savaşa görə, materialların göndərilməsində məhdudiyyətlər yarandığından qiymətlər sürətlə bahalaşıb. 10 apreldən tikinti bazarlarında qiymətlərin stabilləşməsi müşahidə edilir. Taxta və bəzi malların qiymətində azalma olmasa da, qiymətlər dəyişməz qalıb. Qiymətlərin stabilləşməsinin əsas səbəbi tələbin qismən aşağı düşməsi ilə bağlıdır. Ayın axırına doğru qiymətlərin dəyişib-dəyişməyəcəyi proseslərdən asılı olacaq".

**İqtisadçı Rauf Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, qiymətin düşməyi aldadıcıdır:** "Bəli, alıcılıq qabiliyyəti aşağı düşdüyündən qiymət enə bilər. Amma məsələ ondadır ki, müharibə bitməyib. Ukraynaya çoxlu vaqonlar gedir. Yanacaq, ağır texnika daşınır. Bu isə vaqon tələbatını savaş zamanı artırır. Nəticədə ölkəyə gətirilən, avtomobildən daha ucuz və təhlükəsiz hesab olunan qatarların sayı azalır. Daxildə taxtaya ehtiyac olduğuna görə satıcılar daha çox qazanmaq üçün qiymətləri artırırlar. Bundan əlavə, Rusiya da taxtanın qiymətini qaldırmağa səy göstərir. Çünki savaş çoxlu vəsait tələb edir və tikinti materialının hasili üçün əmək sərf olunur. Ölkədə qiymət artımı baş verdiyindən işçinin də əmək haqqı yüksəlir. Əgər daxildən tikinti materialları digər ölkələrə çox gedirdirsə, indi sanksiyalara məruz qalmış Rusiyadan taxtanı az alırlar. Hətta bəzi ölkələr alışdan imtina edir. Nəticədə bu işlə məşğul olanların sayı Rusiyada azalır. Taxta və bəzi mallar az istehsal olunur. Eyni zamanda nəqliyyat xərcləri də yüksəlir. Amma indi Rusiya ilə İran arasında razılaşmaya görə taxta Azərbaycandan rəsmi Tehrana daşınacaq. Burada Rusiyanın nəqliyyat xərci azalacaq. Çünki bir qatar iki ölkəni taxta ilə təmin edəcək. Lakin Hindistan Azərbaycana tikinti materiallarını ondan almağı təklif edib. Ölkəmiz üçün alternativ imkanlar var. Sadəcə, Hindistan uzaq olduğu üçün nəqliyyat xərci yüksək olacaq".

**Sücayət Mehti**

# Hamı narazıdır, hətta şəhid ailəsi də

### İcbari tibbi sığorta ilə bağlı ciddi problemlər var




**"Zəfər" İctimai Birliyinin sədri Sevinc Orucova 3 nömrəli Şəhər Kliniki Xəstəxanadan narazılıq edib. Xüsusi Təyinatlı Qüvvələrin şəhid giziri, həkim Şıxəliyev Farizin tək övladı iki yaşlı Əlinin nevroloji xəstəlikdən əziyyət çəkdiyini vurğulayıb, həkimlərin isə ona bəslədiyi biganə yanaşmasından gileylənib.**

Qarabağ döyüşçüsü, tanınmış jurnalist İlham Tumas "Şərq"ə açıqlamasında şəhid övladına qarşı göstərilən belə münasibəti yaramazlıq adlandırıb.

İ.Tumas İcbari Tibbi Sığortada müəyyən çatışmazlıqların olduğunu söyləyib: "İşlədiyim televiziyadan tibbi cəhətdən sığortalanmışam. Mənim əməkhaqqımdan bunun üçün vəsait tutulur, dövlət xəstəxanasına müraciət edəndə həmin məcburi tibbi sığorta gerçəkləşdirilməlidir.

Dostlarım tibbi sığorta ilə bağlı müraciət ünvanlasalar da, o qədər sənəd istəyiblər ki... Adam bezir. Heç ondan yararlanmayıblar.

Mənə deyilənə görə, müraciət ünvanlayanlar çox narazılıq edir. Həkimlərə də seçim imkanı qoymurlar. Qanunvericilikdə hər şey qaydasında ola bilər, lakin icra məsələsində çox ciddi problemlər var. Bunlar aradan qaldırılmalıdır".

**Aygün Tahir**

# Oğul anasını küçənin ortasında qətlə yetirdi

## Son 10 ildə ailədaxili gərginlik artan sürətlə davam edir

**Gündən-günə artan ailədaxili cinayətlər ölkədə ciddi narahatlıq doğurur.**

**Hər gün ata qızını öldürdü, qardaş bacısının başını kəsdi, oğul anasını bıçaqladı kimi xəbərlər oxuyuruq. Ailə üzvlərinə xəsarət yetirildiyinə dair yayılan informasiyaların təfərrüatları insanları dəhşətə gətirir.**

Bir neçə il əvvəllərə qədər nadir hallarda baş verən bu tip cinayətlər son dövrlər adi hal kimi qəbul olunmağa başlanıb.

Bəs, ailə daxilində, eyni qandan olan insanların bir-birinə qarşı bu amansız rəftarının arxasında nə durur?

Qeyd edək ki, növbəti qətl paytaxtın Nizami rayonunda qeydə alınıb.

Bu dəfə oğul anasını küçənin ortasında qətlə yetirib. Qadının bıçaqlanma anının videogürüntüləri sosial şəbəkələrdə yayılıb.



*"Doğma, eyni qandan, candan olan insanların bir-birinə düşmən olması, onları öldürəcək qədər qohumluq bağlarını heçə sayması arzuolunmaz haldır"*

Qətlə yetirilən qadının Sevinc Məhərrəmova olması müəyyən edilib. Onu qətlə yetirən oğlu, 2007-ci il təvəllüdlü Aydın (şərti) isə tutularaq istintaqa təhvil verilib. Nizami Rayon Prokurorluğu bu gün törədilmiş qətl hadisəsi ilə bağlı məlumat yayıb. Məlumatda bildirilib ki, aprelin 20-si saat 12 radələrində paytaxtın Nizami rayonu ərazisində 1985-ci il təvəllüdlü Sevinc Məhərrəmovanın aldığı xəsarətlərdən ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin oğlu 2007-ci il təvəllüdlü A.C-nın qısqanclıq zəminində anası Sevinc Məhərrəmovaya bıçaq xəsarətləri yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Nizami Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. A.C. şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən professor, sosioloq Əhməd Qəşəmoğlu deyib ki, hər ailədə problem bir cür təzahür edir. Bunları ümumiləşdirmək mümkün deyil. İnsanlar həyəcan siqnalı çalanda o məsələni araşdırmaq lazımdır. Bəzən ailədaxili ağır cinayətlərin artmasına əsas səbəb kimi koronavirusun yaratdığı gərginliyi göstərirlər. Halbuki, son 10 ildə ailədaxili gərginlik artan sürətlə davam edir:** "Həmin vaxt nə koronavirus var idi, nə də buna bənzər problem. Ona görə də indi hər şeyi koronavirusun üstünə yıxmaq doğru deyil. İnsanların aqressivləşməsini şərtləndirən amillər müxtəlifdir. Bunu müəyyənləşdirmək üçün də mütləq peşəkarların iştirakı ilə konsepsiyalar hazırlanmalı, ailələrlə iş aparılmalıdır. Sosial işçilərin sayı çoxdur. Onlar ailələrdə iş aparmalıdır. Bu gün belə bir hadisələr baş verirsə, deməli, mühit, aldığı informasiyanın məzmunu, üstünlük verdiyi dəyərlər ona mənfi təsir bağışlayıb. Mənəvi dəyərlərə üstünlük verən cəmiyyətlər daxildəki problemləri tənzimləyə bilir. Mənəvi dəyərlər sıxışdırılıb, arxa plana keçiriləndə isə cəmiyyətdə bu cür eybəcər hallar ortalığa çıxır. Yəni baş verənlər heç də səbəbsiz deyil. Ailədaxili cinayətlər üst-üstə yığılan xırda məişət mübahisələrin toplusu və ya qısqanclıq zəminində yaranan davaların sonucu olur. Cinayətə əl atmaq insanların aqressiya və emosiya partlaması nəticəsində özlərini kontrol edə bilməməsindən törədilir".

**Sosioloqun sözlərinə görə, doğma, eyni qandan, candan olan insanların bir-birinə düşmən olması, onları öldürəcək qədər qohumluq bağlarını heçə sayması arzuolunmaz haldır və qarşısı mütləq alınmalıdır:** "Bunun isə özünəməxsus, sistemli yolları var. Daha çox çalışılmalıdır ki, mənəvi dəyərlərə maraq artsın. Adi musiqiyə, ədəbiyyata qarşı xarakterin dəyişməsi birbaşa mənəvi dəyərlərə təsir edir. Necə ki, sosial-iqtisadi proqramlar hazırlayırıq, eləcə də mənəvi həyatımıza təsir edən bu cür proseslərin baş verməməsi üçün böyük fəaliyyət proqramları hazırlayıb, həyata keçirək. Əks halda, bu cür faktlar daha da artacaq".

**Şəymən**




# "Azercell Telekom" MMC "Bakı Marafonu -2022"-nin baş sponsorudur

### Lider mobil operator bütün abunəçilərini marafona qatılmağa dəvət edir!

**May ayının 15-də Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, "Azercell Telekom" MMC-nin baş sponsorluğu ilə ölkəmizin idman təqvimində mühüm yer alan "Bakı Marafonu" keçiriləcək.**

Bu il "Bakı Marafonu" yubileyini qeyd edir. Artıq 5 ildir ki, həm Azərbaycandan, həm də dünyanın fərqli ölkələrindən minlərlə idmansevər "Küləyə qalib gəl" şüarı altında "Bakı Marafonu"nda yarışır. Bu dəfə yarış sağlam həyat tərzi pərəstişkarlarını həm də yeni marşrut ilə sevindirəcək. Eyni zamanda, marafonun start və finiş nöqtəsi eyni məkanda yerləşəcək. İştirakçılar Dövlət Bayrağı Meydanında toplaşacaq və 21 kilometrlik məsafəni qət edib yenidən bu nöqtəyə qayıdacaqlar. Bu yenilik xüsusi hazırlığı olmayan iştirakçılara ehtiyac yarandığı halda başlanğıc nöqtəsinə qayıdaraq qalibləri qarşılamaq imkanı yaradacaq.

Yarışa qatılmaq üçün may ayının 10-dək "Gənclik Mall", 28 Mall" və ya "Dəniz Mall"da quraşdırılmış xüsusi məntəqələrə müraciət edərək, eləcə də www.marathon.az saytı üzərindən qeydiyyatdan keçmək mümkündür (ətraflı: www.marathon.az).

*Qeyd edək ki, "Azercell Telekom" MMC 2017-ci ildən etibarən "Bakı Marafonu"nun baş sponsoru qismində çıxış edir. Bu il də ənənəvi olaraq marafonda "Azercell Telekom" MMC-nin rəhbər heyəti ilə yanaşı, şirkətin əməkdaşları və korporativ abunəçiləri də iştirak edəcək.*

*Fəaliyyət dövrü ərzində sağlam həyat tərzini təşviq edən Azercell hər kəsi "Bakı Marafonu"na qatılmağa səsləyir və bütün yarışçılarauğurlar arzu edir!*

# Çörək qıtlığı gözlənilmir, amma bahalaşma qaçılmazdır

## Növbəti dövrlərdə qiymətin necə dəyişməsi dünya bazarındakı dəyişikliklərdən də birbaşa asılı olacaq

**Qazaxıstan da buğda ixracatına qadağalar tətbiq edir. Mərkəzi Asiya ölkəsi bunu qlobal qıtlıq təhlükəsi ilə əlaqələndirir. Hər il xaricə 1 milyard 137 milyon dollarlıq buğda satan Qazaxıstan dünyada 9-cu ən böyük ixracatçıdır. 8 milyard dollarlıq ixracatı ilə dünyada xaricə ən çox buğda satan Rusiya, eləcə də 3.5 milyard dollar eksport ilə ilk beşliyə daxil olan Ukrayna da satışı dayandırmışdı.**

Göründüyü kimi, dünyada ən çox buğda ixrac edən ilk onluq ölkəsindən 3-ü xaricə satışı tamamilə dayandırıb. Bir sıra digər ölkələrdə isə məhdudiyyətlər tətbiq olunur. Baş verənlər fonunda BMT dünyada 1.7 milyard insanın aclıq təhlükəsi ilə üz-üzə qalacağı barədə xəbərdarlıq edib. Dünya yeni aclıq riski ilə qarşılaşmaqdadır. Eyni zamanda, hətta inkişaf etmiş ölkələrdə də ərzaq məhsullarının qiymətlərində artımlar sürətlənib. ABŞ-da illik inflyasiya 8.5 faizədək yüksəlib ki, bu da 1981-ci ildən sonra ən yüksək göstəricidir. Birləşmiş Krallıqda da son 30 ildə ən yüksək inflyasiya qeydə alınıb. Ekspertlərə görə, buğda ixracatlarına qadağalar Azərbaycana da təsir edəcək.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, Azərbaycan ailələri üçün çörək əsas istehlak məhsullarından biri olmaqla yanaşı mətbəxdə xüsusi paya malikdir.** Deputatın sözlərinə görə, ölkəmizdə gündəlik çörək istehlak etməyən az sayda ailələr var. Bu baxımdan, çörəyin qiymətindəki dəyişikliklər həmçinin digər ərzaq mallarının qiymətinə də psixoloji təsir göstərir: "Rəsmi statistikaya görə, Azərbaycanın illik buğda tələbatı 3,5 milyon tondur. Azərbaycanda buğdaya olan tələbin 40 faizi idxal hesabına ödənilir. İdxalda ən böyük paya 80 faizlə Rusiya sahib idi. Qazaxıstan da buğda idxal etdiyimiz ölkələr siyahısında olsa da Rusiya ilə müqayisədə kiçik çəkiyə malik idi. İllik buğda idxalımız 1 milyon tondan çoxdur. Ötən il idxal etdiyimiz buğdanın qiyməti təxminən 30 faiz bahalaşmışdı.



Bununla yanaşı, Azərbaycan buğda ilə bağlı ehtiyatlarını ötən ilin sonu və bu ilin əvvəli daha da artırmağa çalışıb. Və bu proses davam edir. Belə ki, sadəcə bu ilin yanvar ayında ölkəmiz buğda idxalını 4 dəfə artırıb. Preventiv olaraq, Azərbaycan strateji məhsullar ehtiyatlarını daha da artıraraq dünya bazarındakı potensial qıtlığa reaksiya verməyə çalışıb. Nazirlər Kabinetinin məlumatına görə, strateji ərzaq məhsulları ilə bağlı qıtlıq təhlükəsi yoxdur. Hökumət istehlak bazarında tarazlığın qorunub saxlanılacağını bəyan edib. Bunlarla yanaşı, dünya bazarındakı qeyri-müəyyənlik ərzaq ehtiyatlarının daha da artırılmasını prioritetləşdirib".

**Parlament üzvü vurğulayıb ki, ən uyğun yol idxaldan asılılığın aradan qaldırılmasıdır:** "2021-ci ildə ölkədə 595 min hektar ərazidə buğda əkilib. Praktik olaraq əkin sahələrinin 38 faizi buğda əkini üçün istifadə edilir. İllik buğda istehsalı isə 1,9 milyon tondur və son illər istehsalda cüzi olsa da artımlar müşahidə edilməkdədir. İşğaldan azad olunan ərazilərimizin də buğda istehsalına xüsusi töhfə verəcəyi gözlənir. Aydındır ki, dünya bazarındakı qiymət artımları fonunda idxal inflyasiyası qaçılmazdır. Etiraf etmək lazımdır ki, bu ölkəyə idxal edilən ərzaq məhsullarının, o cümlədən buğdanın xərcini artırır. Bu baxımdan, hökumət anti-inflyasiya tədbirləri çərçivəsində strateji ərzaq məhsullarının qiymətlərini optimallaşdırmağa çalışır. Mövcud ehtiyatlar Ukrayna-Rusiya müharibəsi başladıqdan sonra çörəyin qiymətindəki stabilliyi qoruyub saxlamağa imkan verdi. Bununla belə, növbəti dövrlərdə qiymətin necə dəyişməsi dünya bazarındakı dəyişikliklərdən də birbaşa asılı olacaq. Artıq Hindistandan buğda idxalı ilə bağlı danışıqlar aparılır. Nazirlər Kabineti digər alternativ mənbələri təşviq etməklə, o cümlədən yeni güzəşt mexanizmləri ilə ərzaq məhsullarına tələbin ödənilməsində stabilliyi qoruyub saxlamağa çalışır. Ukraynadakı müharibənin dünya bazarında yaratdığı qeyri-müəyyənlik isə dərinləşməkdədir".

**İsmayıl Qocayev**

**Elan**

Muradov İslam Rauf oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Əliyev Akif Həcəli oğluna məxsus Nəsimi rayonu, Tağızadə küçəsi 27 ünvanında yerləşən kafenin şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1114



## "Ağıllı linza"lar 2040-cı ildə istehsal ediləcək

**Hindistanın "PhoneArena" nəşrinin məlumatına görə, ağıllı linzalar gələcəkdə "Google", "Samsung", "Sony" və perspektivli startaplar tərəfindən hazırlanacaq.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, mütəxəssislərin fikrincə, "ağıllı linza"lar 2040-cı ildə istehsal ediləcək.

Onların köməyi ilə insanlar tibbi göstəricilər haqqında məlumat ala və toplaya biləcəklər. Beləliklə, ekspertlər "ağıllı linza"ların bazara çıxmasının təxmini vaxtının 20 ildən tez baş verməyəcəyinə inanırlar. Ümumilikdə isə "Google", "Samsung" və "Sony"nin ağıllı optika bazarında əsas oyunçular olacağı bildirilir.

## "Beş uşaq sözümüz var" demişdi

### Məsud Özil ikinci dəfə ata olur



**"Fənərbaxça"lı ulduz futbolçu Məsud Özil Amine Gülşe ilə 2019-cu ildə nikah masasına oturmuşdu.**

Xoşbəxt evliliklərindən Əda adında bir qızları olan cütlükdən yenə gözəl xəbər gəldi. "Beş uşaq sözümüz var" deyən Amine Gülşənin hamilə olduğu bildirilib. Qızının hər anına şahid olmaq istədiyini söyləyən Gülşe, "O qədər sürətli böyüyür ki, bu anları yaşamaq istəyirəm. Onun üçün bir çox şeyə ara verdim, amma başqa işlərlə məşğul oluram. O da sürpriz olsun" demişdi.

Xəbərə görə; Amine Gülşe ilə Məsud Özil, indilərdə ikinci dəfə körpə gözləyir. Gülşənin üç aylıq hamilə olduğu və oğulu olacağı danışılır.

**Turan**

## 70 min dollarlıq lüks avtomobil

### Azərbaycanlı məşhurun qızı avtomobil kolleksiyasını zənginləşdirib



**Müğənni Aytac Vidadiqızı avtomobil kolleksiyasını zənginləşdirib.**

**Milli.Az xəbər verir ki, bu yaxınlarda plastik cərrahi əməliyyatı ilə gündəm olan gənc müğənni, bu dəfə yeni lüks avtomobili ilə diqqət çəkib.**

**Keçən il özünə yenə "Galenvagen" markalı avtomobil alan Aytac avtomobil kolleksiyasına yeni model "Mercedes C-Class Coupe C205" də əlavə edib. Aytacın bazar dəyəri 70 min dollar olduğu deyilən lüks avtomobili ilə fotolarını təqdim edirik:**

***Xatırladaq ki, Aytac Vidadiqızı mərhum müğənni Vidadi Bərdəlinin övladıdır.***

## Ancelina Coli FTB-ni məhkəməyə verib

### Təyyarənin göyərtəsindəki görüntülər araşdırılıb



**Hollivud ulduzu Ancelina Colinin FTB-ni (Federal Təhqiqat Bürosu) məhkəməyə verdiyi iddia olunub.**

**Axşam.az xəbər verir ki, bir neçə gün əvvəl məhkəməyə büro haqqında anonim şikayət daxil olub. İddiaçı bildirib ki, istintaq bürosu şəxsi təyyarədə baş vermiş insidentlə bağlı təfərrüatlarla tanış olmaqdan imtina edib. "Daily Mail" nəşri şikayətdə Colinin əlinin olduğunu irəli sürüb.**

**İddiaya səbəb 2016-cı ildə Fransadan ABŞ-a şəxsi təyyarə ilə uçarkən aktrisanın keçmiş əri Bred Pittin oğulları Maddoksa əl qaldırmasıdır. Lakin FTB aktyora qarşı ittiham qaldırmaqdan imtina edib. Onlar təyyarənin göyərtəsindəki görüntüləri araşdırıb və heç bir fiziki hücum olmadığı qənaətinə gəliblər.**

**Qeyd edək ki, təyyarədə baş verən hadisədən bir neçə gün sonra Coli Pittdən boşanmaq üçün məhkəməyə müraciət edib və uşaqlarına tam qəyyumluq tələb edib. İkili rəsmi şəkildə 2019-cu ildə boşanıb.**

## "Survivor" izləyicilərinə pis xəbər



**"Tv8" telekanalında yayımlanan "Survivor All Star" yarışmasının yayımında 2 həftəlik dəyişiklik olunub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, futbol üzrə "Çempionlar liqası"nın televiziyalarda məcburi yayımlanması səbəbiylə proqram 27-28 may və 4-5 aprel tarixlərində yayımlanmayacaq.**

***Qeyd edək ki, "Survivor All Star" yarışmasında "Məşhurlar" və "Könüllülər" komandalarındakı iştirakçıların yerləri dəyişdiriləcək.***



# Pişiklər bir-birinin, hətta sahibinin adını bilir

### Yaponiya universitetində maraqlı tədqiqat işi aparılıb

**Yaponiyanın Kyoto Universitetində pişiklərlə bağlı maraqlı bilgilər əldə edilib. Universitetdə pişiklərin davranışları üzərində tədqiqat aparılıb. Tədqiqat nəticəsində məlum olub ki, bir evdə 1-dən artıq, 2 və ya 3 pişik bəslənirsə, pişiklər bir-birinin, eyni zamanda sahiblərinin də adını bilir.**





Bu barədə "NTV.com.tr"də məlumat verilir. Qeyd olunur ki, tədqiqat 48 pişik üzərində aparılıb. Pişiklər barədə adətən "eqoist" kəlməsi istifadə edilir, pişiklərin yalnız özünü sevən, öz mənfəətini güdən heyvan olduğu deyilir. Tədqiqat isə bunun əksini təsdiq edib. Araşdırmaçılar evlərdə və kafelərdəki bir neçə pişiyin davranışlarını müşahidə edib. Hər pişiyə sahibinin başqa bir pişiyin adını çağırdığı səs yazısı dinlədilib, sonra da o pişiyin fotosu göstərilib. Evdə bəslənən 19 pişik sahiblərinin başqa bir pişiyin adını çağırdıqda və o pişiyin fotosunu göstərdikdə başını yana çevirib. Başqa pişik adı çəkəndə isə gözləriylə fotolarda o pişiyi axtarıb. Tədqiqatçılar bu nəticəyə gəlib ki, pişiklər öz adlarını bildiyi kimi, bir-birilərinin və sahiblərinin də adını bilir. Elm adamları bunu rəqabətlə əlaqələndirir. Bir pişik sahibi onun adını çağırdıqda yemək ala biləcək duyğusuyla ona yaxınlaşır, lakin başqa pişiyin adı çəkilirsə, "məni çağırmırlar", duyğusuyla yerindən tərpənmir. Pişiklər yemək zamanı adlarının çağırılmasına az reaksiya verir, tox olduqda isə daha tez reaksiya verirlər.

**Məlahət Rzayeva**



# Kraliça onları görmək istədi

### Şahzadə Harri və həyat yoldaşı Meqan Marka özəl dəvətə gəlib

**Kral ailəsindən, kral sarayından səs-küylü ayrılmalarından uzun müddət sonra kraliça şahzadə nəvəsini nəhayət, yanına çağırıb.**

**"Şərq"**

**"NTV.com.tr"yə istinadən xəbər verir ki, bir neçə gün əvvəl şahzadə Harri həyat yoldaşı Meqan Markla kraliçanı ziyarət etmişdi.**



Bu günlərdə isə kraliçadan şahzadə və həyat yoldaşına özəl dəvət gəlib. Kraliça onları taxta əyləşməsinin 70-ci ildönümü - Platin yubiley münasibətilə düzənlənəcək rəsmi tədbirdə iştirak etməyə dəvət edib. Bu cür tədbirlərdə adətən kral ailəsi birlikdə Bekinqem sarayının eyvanına çıxaraq xalqı salamlayır. Lakin bu da bildirilir ki, şahzadə harri və Meqan Markl kral ailəsində bəlli titula malik deyillər. Bu səbəbdən də onlar tədbirdə önəmli yer tutmayacaq. Ötən günlərdə şahzadə və həyat yoldaşı müharibə qazilərindən ibarət Böyük Britaniya komandasının iştirak etdiyi idman yarışını birgə izləmişdi, daha sonra isə onların kraliça və şahzadə Çarlzla Vindsor qəsrində gizli söhbət etdiyi məlum olmuşdu. Görüşdən sonra açıqlama verən şahzadə Harri "əlahəzrət komandamız üçün gözəl mesajlar göndərdi, mən də onları komandaya çatdırdım. Onu görmək əla idi. Əminəm ki, gələ bilsəydi, o da burada olmaq istərdi", söyləyib. Belə xəbər də var ki, şahzadə Harri qardaşı şahzadə Uilyamla münasibətlərinin düzəldilməsinə çalışır və vasitəçi axtarır.

**Məlahət**

## Parisdə II Rənglər Festivalı keçirilir

### Festivalda 68 fransız və xarici rəssam əsərlərini nümayiş etdirir



**Parisdə II Rənglər Festivalı keçirilir.**

Azərtac xəbər verir ki, festivalda 68 fransız və xarici rəssam əsərlərini nümayiş etdirir.

Küçə rəssamları, rəssamlar, fotoqraflar və illüstratorlar Parisin 11-ci rayonunda Jül Ferri prospektində yaşayış olmayan binaya daxil olaraq onun 700 kvadratmetrlik sahəsini tamamilə dəyişiblər.

Tanınmış şəhər rəssamı və Rənglər Festivalının direktoru Kombo bu məkanın layihəyə tamamilə əks olduğunu bildirib.

Bununla belə, festivala qatılmış rəssamlar divar, tavan, döşəmə və pilləkənlərdə əsərlərini nümayiş etdiriblər.

Bu il riayət edilməli olan yeganə məhdudiyyət ümumi rəng kimi parlaq mavi və çəhrayı rənglərdən istifadə etməməkdir.

Festival 2-ci dəfə keçirilməsinə baxmayaraq, böyük uğur qazanıb. Mayın 8-dək davam edəcək festivala 30 min nəfərin gələcəyi gözlənilir.

## Reza Zərrab sevgilisinə 700 minlik ev aldı



**Bir ay əvvəl həyat yoldaşından boşanaraq Mayamiyə yerləşən Petek Dinçözün adı Ebru Gündeşin keçmiş həyat yoldaşı, Cənubi Azərbaycandan olan iş adamı Reza Zərrabla hallanmağa başlayıb.**

Axşam.az xəbər verir ki, "Söylemezsem olmaz" proqramında aparıcı Bircan Bali bu haqda danışıb. O bildirib ki, Reza orada Peteyə 700 min dollarlıq ev alıb. Keçici olaraq rəfiqəsinin evində qalan ifaçının qısa zamanda sözügedən evə köçəcəyi deyilir.

*Qeyd edək ki, Petek Dinçöz 2014-cü ildə iş adamı Serkan Kodaloğlu ile nikah masasına oturub. Onların bir oğlu olub. Cütlük bir ay əvvəl rəsmi boşanıb. Rezanın bundan əvvəl Hadisə ilə də eşq yaşadığı ortaya çıxmışdı.*

## Pərvin Abıyeva rəqəm açıqladı

### "Tiktok"a gəldiyim ay 36 min dollar qazanmışam" -



**Aktrisa Pərvin Abıyeva tiktokdan qazandığı məbləği açıqlayıb.**

Bu barədə aktrisa "Tarixin bir günü" verilişində danışıb. Pərvin tiktoka gəldiyi ilk ayda 36 min dollar qazandığını bildirib:

"İndi deyirlər ki, bütün gününü tiktokda keçirirsən. Bir də görürsən heç girmirəm, qazanmıram. Amma olur ki, günə 3 min dollar pul gəlir. Tiktoka ilk gəldiyim ay 35-36 min dollar qazanmışam. O pulu özümə xərcləmədim. Qazanmağı sevən adamam. Əvvəl tiktokda qazanmaq olmurdu və ona görə də istifadə etmirdim. İndi isə oyunlara görə girirəm. Çünki nə yolla olursa-olsun pul qazanmağı sevən insanam. Kişi kimi bir varlığam, daşdan pul çıxarmağı bacarıram. Harada pul görürəmsə, ora qaçıram. Pulu yox, qazanmağı sevdiyimə görədir".